“Azərsu” Açıq Səhmdar Cəmiyyəti

Konsolidasiya edilmiş maliyyə hesabatları

Müstəqil auditorun hesabatı ilə birlikdə
31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə

Mündəricat

Müstəqil auditorun hesabatı

Konsolidasiya edilmiş maliyyə hesabatları

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat 2
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat 3
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat 4

Konsolidasiya edilmiş maliyyə hesabatları ilə bağlı qeydlər

1. Qrupun əsas fəaliyyəti 5
2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri 5
3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi 20
4. Mühüm mühasibat uçotu ehtimal və mühakimələri 24
5. Əsas vəsaitlər 27
6. Aktivdən istifadə hüququ 28
7. Vergilər üzrə debitor borcu 28
8. Mal-material ehtiyatları 29
9. Ticarət və digər debitor borcları 29
10. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudiyyət qoyulmuş pul vəsaitləri 30
11. Səhm kapitalı 31
12. Dövlət investisiyaları 31
13. Faiz hesablanan kreditlər və borc öhdəlikləri 32
14. Ehtiyatlar 34
15. Digər vergilər və cərimələr üzrə xalis kreditor borcu 35
16. Ticarət və digər kreditor borcları 35
17. İcarə öhdəlikləri 35
18. Əlaqəli tərəflərlə qalıqlar və əməliyyatlar 36
19. Maliyyə risklərinin idarə edilməsi 37
20. Satışdan gəlirlər və təxirə salınmış gəlirlər 42
21. Digər gəlir 42
22. Xərclər 43
23. Mənfəət vergisi 45
24. Əhəmiyyətli nağdsız investisiya və maliyyələşdirmə fəaliyyəti 46
25. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri 46
26. Hesabat tarixindən sonra baş vermiş hadisələr 48

RSM

RSM Azerbaijan
Demirchi Tower 16 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

Müstəqil Auditorun Hesabatı

"Azərsu" ASC-nin rəhbərliyinə və Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə:

Rəy

Biz "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlirlər, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirir.

Rəyin bildirilməsi üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Qrupu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və konsolidasiya edilmiş maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və Qrupun biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübütlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

30 iyun 2020-ci il

Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeydlər	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Aktivlər			
Uzunmüddətli aktivlər			
Əsas vəsaitlər	5	827,102	813,301
Qeyri-maddi aktivlər		430	240
Aktivdən istifadə hüququ	6	746	–
Təxirə salınmış vergi aktivləri	23	193	–
Cəmi uzunmüddətli aktivlər		**828,471**	**813,541**
Cari aktivlər			
Mal-material ehtiyatları	8	15,503	28,232
Vergilər üzrə debitor borcu	7	20,359	23,105
Ticarət və digər debitor borcları	9	24,044	16,319
Avans ödənişləri		5,218	2,303
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	10	17,963	34,302
Məhdudiyyət qoyulmuş pul vəsaitləri	10	379	823
Cəmi cari aktivlər		**83,466**	**105,084**
Cəmi aktivlər		**911,937**	**918,625**
Kapital və öhdəliklər			
Kapital			
Səhm kapitalı	11	400,000	400,000
Əlavə ödənilmiş kapital	11	6,238,703	2,013,396
Dövlət investisiyaları	12	664,057	4,190,156
Yığılmış zərər		(6,977,191)	(6,384,703)
Cəmi kapital		**325,569**	**218,849**
Öhdəliklər			
Uzunmüddətli öhdəliklər			
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	13	227,831	224,717
Ticarət və digər kreditor borcları	16	30,687	61,418
İcarə öhdəlikləri	17	581	–
Ehtiyatlar	14	11,048	8,029
Təxirə salınmış vergi öhdəlikləri	23	–	80
Cəmi uzunmüddətli öhdəliklər		**270,147**	**294,244**
Cari öhdəliklər			
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	13	19,279	18,806
Mənfəət vergisi üzrə kreditor borcu		2,249	2,300
Digər vergilər və cərimələr üzrə xalis kreditor borcu	15	3,267	2,641
Ticarət və digər kreditor borcları	16	283,032	372,654
İcarə öhdəlikləri	17	187	–
Təxirə salınmış gəlirlər	20	8,180	9,104
Ehtiyatlar	14	27	27
Cəmi cari öhdəliklər		**316,221**	**405,532**
Cəmi öhdəliklər		**586,368**	**699,776**
Cəmi kapital və öhdəliklər		**911,937**	**918,625**

30 iyun 2020-ci il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Cənab Qorxmaz Hüseynov
Sədr

Cənab Yaşar Kəlbiyev
İqtisadiyyat və uçot idarəsinin rəisi

Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat

(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeydlər	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Satışdan gəlirlər	20	193,036	176,715
Satışların maya dəyəri	22	(108,372)	(92,937)
Ümumi mənfəət		**84,664**	**83,778**
Digər gəlir	21	12,072	26,300
İnzibati xərclər	22	(31,352)	(22,989)
Satış və paylama xərcləri	22	(103,115)	(76,102)
Digər əməliyyat xərcləri	22	(538,689)	(492,876)
Məzənnə fərqindən (zərər)/gəlir	22	(13,325)	5,007
Əməliyyat zərəri		**(589,745)**	**(476,882)**
Maliyyə xərci		(2,713)	(2,250)
İcarə öhdəlikləri üzrə faiz xərci		(54)	–
Vergidən əvvəl zərər		**(592,512)**	**(479,132)**
Mənfəət vergisi gəliri/(xərci)	23	24	(1,069)
İl üzrə zərər		**(592,488)**	**(480,201)**
İl üzrə digər ümumi gəlir		–	–
İl üzrə cəmi ümumi zərər		**(592,488)**	**(480,201)**

Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat

(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeydlər	Səhm kapitalı	Əlavə ödənilmiş kapital	Dövlət investisiya-ları	Yığılmış zərər	Cəmi kapital
31 dekabr 2017-ci il tarixinə		**400,000**	**1,568,732**	**3,874,410**	**(5,904,502)**	**(61,360)**
Əlavə ödənilmiş kapitalda artım	11	–	444,664	–	–	**444,664**
Dövlət investisiyalarında xalis artım	12	–	–	315,746	–	**315,746**
İl üzrə zərər		–	–	–	(480,201)	**(480,201)**
31 dekabr 2018-ci il tarixinə		**400,000**	**2,013,396**	**4,190,156**	**(6,384,703)**	**218,849**

	Qeydlər	Səhm kapitalı	Əlavə ödənilmiş kapital	Dövlət investisiya-ları	Yığılmış zərər	Cəmi kapital
31 dekabr 2018-ci il tarixinə		**400,000**	**2,013,396**	**4,190,156**	**(6,384,703)**	**218,849**
Əlavə ödənilmiş kapitalda artım	11	–	4,225,307	–	–	**4,225,307**
Dövlət investisiyalarında xalis azalma	12	–	–	(3,526,099)	–	**(3,526,099)**
İl üzrə zərər		–	–	–	(592,488)	**(592,488)**
31 dekabr 2019-cu il tarixinə		**400,000**	**6,238,703**	**664,057**	**(6,977,191)**	**325,569**

Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeydlər	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il (yenidən təsnifləşdirilmiş*)
Əməliyyat fəaliyyəti			
Vergidən əvvəl zərər		(592,512)	(479,132)
Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər			
Əsas vəsaitlərin köhnəlməsi və amortizasiya	22	23,840	12,760
Aktivdən istifadə hüququ üzrə köhnəlmə	22	178	–
Ticarət və digər debitor borclarının dəyərsizləşməsində dəyişiklik	9	4,382	4,498
Ehtiyatda dəyişiklik	14	3,019	(2,058)
Maliyyə xərci		2,713	2,250
İcarə öhdəliyi üzrə faiz xərci		54	–
Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin dəyərsizləşməsi	22	538,689	492,876
Məzənnə fərqindən zərər/(gəlir)		12,925	(5,145)
Əsas vəsaitlərin silinməsi üzrə zərər	22	99	558
		(6,613)	**26,607**
Dövriyyə vəsaitlərində dəyişikliklər			
Mal-material ehtiyatları		12,729	2,218
Vergilər üzrə debitor borcları		2,746	344
Ticarət və digər debitor borcları		(12,107)	(2,462)
Təxirə salınmış gəlirlər		(924)	366
Ticarət və digər kreditor borcları		(1,721)	14,709
Avans ödənişi		(2,935)	(1,634)
Mənfəət vergisi istisna olmaqla vergilər və cərimələr üzrə xalis kreditor borcları		619	1,119
		(8,206)	**41,267**
Ödənilmiş mənfəət vergisi		(293)	(601)
Əməliyyat fəaliyyəti üzrə (istifadə edilən)/daxil olan xalis pul vəsaitləri		**(8,499)**	**40,666**
İnvestisiya fəaliyyəti			
Əsas vəsaitlərin alınması		(7,653)	(10,844)
Qeyri-maddi aktivlərin alınması		(397)	(252)
İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri		**(8,050)**	**(11,096)**
Maliyyələşdirmə fəaliyyəti			
Ödənilmiş icarə öhdəlikləri		(190)	–
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(190)**	–
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə məzənnə fərqindən yaranan gəlir		400	138
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım		**(16,339)**	**29,708**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə	10	**34,302**	**4,594**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna	10	**17,963**	**34,302**

* Burada göstərilmiş müəyyən məbləğlər 2018-ci il üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarına uyğun deyil və aparılmış düzəlişləri əks etdirir, bax Qeyd 2.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

1. Qrupun əsas fəaliyyəti

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Azərsu" ASC) və onun törəmə müəssisələri ("Qrup") 11 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə qanunvericiliyinə əsasən yaradılmış və Azərbaycan Respublikasında fəaliyyət göstərməkdədir. Qrup 100% Azərbaycan Respublikası dövlətinə ("Dövlət") məxsusdur və Azərbaycan Respublikasında su təchizatı, içməli suyun təchizatı və kanalizasiya xidmətlərinin həyata keçirilməsi sahəsində dövlət siyasətini və strategiyasını həyata keçirən təbii inhisarçıdır. Qrupun əsas funksiyalarına suyun mənbələrdən çıxarılması, Azərbaycan Respublikası ərazisində istehlakçılar tərəfindən istifadəsinin, paylanmasının və satışının mümkün olması üçün təmizlənməsi və suyun xüsusiyyətlərinin sabitləşdirilməsi daxildir.

Qrupun törəmə müəssisələri 11 saylı Qeyddə göstərilmişdir.

Qrupun hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı, AZ1012, Moskva pros., 67.

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri

Maliyyə hesabatlarının hazırlanmasının əsası

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi ("MUBSK") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

Qrupun fəaliyyətinin fasiləsizliyi

Fəaliyyətin fasiləsizliyi prinsipi Qrupun fəaliyyətini yaxın gələcəkdə davam etdirəcəyini, aktivlərini realizə edə biləcəyini və fəaliyyətinin adi gedişində öhdəlik və təəhhüdlərini yerinə yetirə biləcəyini nəzərdə tutur. İnfrastruktur layihələrində əhəmiyyətli cari investisiyalar nəticəsində Qrupun cari öhdəlikləri cari aktivlərindən 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə, müvafiq olaraq, 232,755 AZN və 300,448 AZN çox olmuşdur. Qrup 31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə 592,488 AZN (2018-ci il 480,201 AZN) məbləğində xalis zərərə məruz qalmışdır. Qrup su təchizatı və kanalizasiya xidmətləri üzrə dövlət inhisarının bir hissəsidir və Dövlət Qrupun cari investisiya layihələri ilə yanaşı fəaliyyətinə kömək etmək məqsədi ilə maliyyələşdirməni davam etdirir.

Qrup Azərbaycan Respublikasında aktiv şəkildə yeni su kəmərlərinin və kanalizasiya sistemlərinin tikintisi sahəsində investisiya fəaliyyəti ilə məşğuldur və müntəzəm olaraq Dövlətdən maddi yardım alır. Tarixən Qrupun əməliyyat zərərləri, əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti və dövriyyə vəsaitlərində çatışmazlıq olmuşdur. Qrupun 2019-cu il üzrə müvafiq qanunvericiliyə uyğun hazırlanmış hesabatlarında 1 m^3 su və kanalizasiya xidmətinin maya dəyəri 1.42 AZN, orta satış qiyməti isə 0.75 AZN olmuşdur. Hesabat ilində 1 m^3 su və kanalizasiya xidmətinin maya dəyəri orta satış qiymətindən 2 dəfəyə yaxın çox olmuşdur.

Rəhbərlik gələcəkdə pul vəsaitlərinin axınını təmin etmək məqsədilə yeni infrastruktur layihələrinin tikintisi, həmçinin, mövcud qurğuların təmiri ilə bağlı Master Plan işləyib hazırlamışdır. Bu da Qrupa abunəçilərinin sayını artırmaq, debitor borclarını toplamaq, satış üzrə zərərlərini azaltmağa imkan yaradacaqdır. Bundan əlavə, 13 may 2016-cı il tarixində Azərbaycan Respublikasının Tarif Şurası su və kanalizasiya xidmətləri üzrə müştərilərə tətbiq edilən satış tariflərinin artımını təsdiq etmişdir. Bu yeni tariflər 16 may 2016-cı il tarixindən qüvvəyə minmişdir. Nəticədə, hazırda tikilməkdə olan əsas layihələrin başa çatmasından sonra Qrupun maliyyə vəziyyətinin yaxşılaşmasına gətirib çıxaracaqdır. Qrup fəaliyyətini davam etdirmək və cari investisiya layihələrini başa çatdırmaq üçün Dövlət tərəfindən təqdim olunan maliyyələşmələrdən asılı vəziyyətdə qalmaqdadır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Qrupun fəaliyyətinin fasiləsizliyi (davamı)

Bu şərtlər Qrupun fəaliyyətinin fasiləsiz davam etmək qabiliyyətinə dair əhəmiyyətli şübhə doğura biləcək qeyri-müəyyənliyə səbəb olur. Lakin, Hökumət Qrupun tam səhmdarı kimi onun sosial yatırımları və ölkə üçün əhəmiyyətini nəzərə alaraq maliyyə dəstəyinin göstərilməsinə davam etməkdə maraqlıdır. Rəhbərlik hesab edir ki, Qrupun yaxın gələcəkdə fəaliyyət göstərməsi üçün müvafiq tədbirlər görülür. Müvafiq olaraq, Qrup özünün konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında fəaliyyətin fasiləsizliyi prinsipini tətbiq edir.

Konsolidasiya prinsipləri

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları "Azərsu" ASC-nin və onun törəmə müəssisələrinin 31 dekabr 2019-cu il tarixinə maliyyə hesabatlarını daxil edir. Törəmə müəssisələr, Qrupun onların fəaliyyətindən fayda əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərini idarə etməkdən ibarət olan nəzarət və səsvermə hüquqlarının yarısından çox iştirak payına sahib olan bütün (o cümlədən xüsusi məqsədli) müəssisələrdir.

Törəmə müəssisələr satın alındığı tarixdən (yəni Qrup nəzarəti əldə etdiyi tarixdən) etibarən konsolidasiya edilir və həmin nəzarətin başa çatdığı tarixədək konsolidasiya edilməsi davam etdirilir. Törəmə müəssisənin maliyyə hesabatları əsas şirkətin maliyyə hesabatları ilə eyni dövrlər üzrə və eyni mühasibat uçotu prinsipləri əsasında hazırlanır. Qrup daxilində olan bütün qalıqlar, əməliyyatlar, qrup daxilində aparılan əməliyyatlardan əldə edilən reallaşdırılmamış gəlirlər, zərərlər və dividendlər tamamilə ləğv edilir.

Xarici valyutanın çevrilməsi

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında bütün məbləğlər, xüsusi göstərilmiş hallar istisna olmaqla, min Azərbaycan manatı ("AZN") ilə təqdim edilir.

"Azərsu" ASC-nin və onun törəmə müəssisələrinin funksional valyutası AZN-dir, çünki Qrupun gəlirləri, xərcləri, alınmış mal-material ehtiyatları və öhdəliklərinin əhəmiyyətli hissəsinin qiymətləndirilməsi, çəkilməsi, ödənilməsi və ya digər yolla ölçülməsi AZN ilə həyata keçirilir.

Xarici valyuta ilə aparılmış əməliyyatlar ilkin olaraq əməliyyat tarixində qüvvədə olan müvafiq məzənnələri istifadə etməklə AZN ilə qeydə alınır.

Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixində qüvvədə olan spot dərəcəsi ilə funksional valyutaya çevrilir.

Monetar aktivlərin funksional valyutada təkrar ölçülməsindən irəli gələn məzənnə gəliri və ya zərəri mənfəət və ya zərərdə tanınır.

Xarici valyuta ilə ilkin maya dəyəri çərçivəsində ölçülən qeyri-monetar maddələr ilkin əməliyyatlar tarixinə məzənnədən istifadə etməklə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir. Ədalətli dəyərlə qiymətləndirilmiş qeyri-monetar maddələrin çevrilməsindən yaranan gəlir və ya zərər maddənin ədalətli dəyərində dəyişiklik üzrə gəlir və ya zərərdə tanınmasına uyğun olaraq uçota alınır (yəni gəlir və ya zərərin ədalətli dəyəri digər məcmu gəlirdə ("DMG") və ya mənfəət və ya zərərdə tanınmış maddələr üzrə çevrilmə fərqləri də, müvafiq olaraq, DMG-də və ya mənfəət və ya zərərdə tanınır).

AZN Azərbaycan Respublikasının ərazisindən kənarda sərbəst dönərli valyuta deyil. Azərbaycan Respublikasının hüdudlarında rəsmi məzənnə gündəlik əsasla Azərbaycan Respublikasının Mərkəzi Bankı ("Mərkəzi Bank") tərəfindən müəyyən edilir. Bazar dərəcələri rəsmi dərəcələrdən fərqli ola bilər, lakin bu fərqlər ümumilikdə Mərkəzi Bank tərəfindən nəzarət edilən dar parametrlər çərçivəsindədir. Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixində rəsmi məzənnə ilə qeydə alınır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Xarici valyutanın çevrilməsi (davamı)

Xarici valyuta ilə qalıqların çevrilməsi üçün istifadə olunmuş rəsmi məzənnə dərəcələri aşağıdakı kimi olmuşdur:

	31dekabr 2019-cu il	31dekabr 2018-ci il
1 ABŞ dolları / 1 AZN	1.7000	1.7000
1 Avro / 1 AZN	1.9035	1.9468
1 XBH / 1 AZN	2.3463	2.3573

Mühasibat uçotu siyasətində və qeydlərində dəyişikliklər

16 saylı MHBS-İcarələr

16 saylı MHBS 17 saylı MUBS "İcarələr", 4 saylı MHBŞK "Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun müəyyən edilməsi" Şərhi, Standartların Şərhi Komitəsinin ("SŞK") 15 saylı "Əməliyyat icarələri – Həvəsləndirmələr" Standartı və SŞK "İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi" 27 saylı Standartını əvəz edərək təkmilləşdirir. Standart icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyənləşdirir və icarəyə götürənlərdən əksər icarələrin yeganə balans hesabatı modelində uçota alınmasını tələb edir.

16 saylı MHBS əsasında icarəyə verənin uçotu 17 saylı MUBS-yə uyğun uçot qaydasından əhəmiyyətli dərəcədə fərqlənmir. İcarəyə verənlər bütün icarələri 17 saylı MUBS-də təqdim edilmiş oxşar prinsiplərdən istifadə edərək əməliyyat və ya maliyyə icarəsi kimi təsnif etməyə davam edəcəklər. Bu səbəbdən, 16 saylı MHBS Qrupun icarəyə verən qismində təmsil olduğu müqavilələrə təsir göstərməmişdir.

Qrup 16 saylı MHBS-ni 01 yanvar 2019-cu il tarixinə dəyişdirilmiş retrospektiv metodla tətbiq etmiş və standartda xüsusi keçid müddəalarına əsasən icazə verildiyi kimi 2018-ci ilin hesabat dövrü üçün müqayisəli məbləğləri yenidən dərc etməmişdir. Bu metoda əsasən standartın ilk tətbiq tarixinə mümkün təsirləri məcmu şəkildə retrospektiv qaydada tanınır. Beləliklə, yeni icarə qaydalarından irəli gələn yenidən təsnifləşdirmə və düzəlişlər 01 yanvar 2019-cu il tarixində maliyyə vəziyyəti haqqında hesabatda tanınmışdır. Qrup standartı yalnız əvvəllər 17 saylı MUBS və 4 saylı MHBŞK şərhi tətbiq olunanda icarənin daxil olduğu müqavilə kimi müəyyənləşdirilən müqavilələrə tətbiq etməyi seçmişdir.

Qrup həmçinin ilkin tətbiq tarixində icarə müddəti 12 ay ərzində tamamlanan və alış seçimi ehtiva etməyən ("qısamüddətli icarələr") icarə müqavilələrinə, eləcə də aktivinin dəyəri az olan icarə müqavilələrinə ("aşağı dəyərli aktivlər") standartın təklif etdiyi istisnaları tətbiq etməyi seçmişdir.

01 yanvar 2019-cu il tarixinə 16 saylı MHBS-nin tətbiqinin təsiri (artımı / (azalması)) aşağıda göstərilmişdir:

Aktivlər	
Aktivdən istifadə hüququ	492
Digər aktivlər	(13)
Cəmi aktivlər:	**479**
Öhdəliklər	
İcarə öhdəlikləri	479
Cəmi öhdəliklər:	**479**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Mühasibat uçotu siyasətində və qeydlərində dəyişikliklər (davamı)

16 saylı MHBS-İcarələr (davamı)

(a) 16 saylı MHBS-nin tətbiq edilməsinin təsiri

Qrupda müxtəlif əmlak və avadanlıqlar üçün icarə müqavilələri mövcuddur. 16 saylı MHBS qəbul edilməzdən əvvəl, Qrup icarələrin hər birini (icarəyə götürən tərəf kimi) başlanğıc tarixində ya maliyyə icarəsi ya da əməliyyat icarəsi kimi təsnif edirdi. İcarə, Qrup icarəyə götürülmüş aktivin mülkiyyətinə aid bütün risk və faydaları əsas etibarilə ötürdüyü təqdirdə, maliyyə icarəsi kimi; əks halda əməliyyat icarəsi kimi təsnif edilirdi. Maliyyə icarəsi icarənin başlanğıc tarixində icarəyə götürülmüş əmlakın ədalətli dəyəri və ya ən az icarə ödənişlərinin cari dəyəri ilə kapitallaşdırılırdı. İcarə ödənişləri faizlə icarə öhdəliyinin azaldılması arasında bölüşdürülürdü. Əməliyyat icarəsində icarəyə götürülmüş əmlak kapitallaşdırılmır və icarə ödənişləri müqavilə müddəti ərzində düz xətt metodu ilə mənfəət və ya zərərdə icarə xərcləri kimi tanınırdı. Qabaqcadan ödənilmiş və ya hesablanmış lakin ödənilməmiş icarə haqları müvafiq olaraq digər aktivlər və digər öhdəliklər kimi tanınırdı.

16 saylı MHBS qəbul edildikdən sonra, qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, Qrup bütün icarələr üçün vahid tanınma və ölçülmə metodu tətbiq etmişdir. Standart, Qrup tərəfindən tətbiq olunan xüsusi keçid tələbləri və praktiki müddəaları təmin edir.

Əvvəllər əməliyyat icarəsi kimi uçota alınan icarələr

Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, əvvəllər əməliyyat icarəsi kimi təsnif edilmiş icarələr üçün Qrup "Aktivdən istifadə hüququ" və icarə öhdəliklərini tanımışdır. Qrupun bütün icarələri üçün Aktivdən istifadə hüququ müvafiq olaraq qabaqcadan ödənilmiş və hesablanmış lakin ödənilməmiş icarə ödənişlərinə düzəlişlər tətbiq etməklə icarə öhdəliklərinə bərabər olan məbləğə əsasən tanınır. İcarə öhdəlikləri ilkin müraciət tarixində artan borc faiz dərəcəsindən istifadə etməklə qalan icarə ödənişlərinin balans dəyərinin diskontlaşdırılması əsasında tanınmışdır. 01 yanvar 2019-cu il tarixinə icarə öhdəliklərinə tətbiq olunan orta çəkili borc faiz dərəcəsi 9% təşkil etmişdir.

Qrup həmçinin aşağıda sadalanan mövcud praktiki məqsədəuyğunluqları tətbiq etdi:

- Oxşar xüsusiyyətləri olan icarə portfelinə vahid endirim dərəcəsindən istifadə edildi;
- İlkin tətbiq tarixindən dərhal əvvəl icarə müqavilələrinin gəlir gətirməyən qəbildən olub olmadığına dair qiymətləndirməyə istinad edildi;
- İlkin tətbiq tarixində icarə müddəti 12 ay ərzində tamamlanan qısamüddətli icarə müqavilələrinə azadolmalar tətbiq olundu;
- Aktivdən istifadə hüququnun ilkin tətbiq tarixində ölçülməsi zamanı yaranan birbaşa xərclər çıxıldı;
- Müqavilədə icarə müddətinin uzadılması və ya ləğv edilməsilə bağlı seçimlərin olduğu hallarda icarə müddətinin necə müəyyənləşdirilməsi nəzərə alındı.

Qrup, həmçinin ilkin tətbiq tarixinə müqavilənin icarə əməliyyatı ehtiva edib etmədiyini yenidən qiymətləndirməməyi seçdi. Bunun əvəzində, keçid tarixindən əvvəl bağlanmış müqavilələr üçün qrup, 17 saylı MUBS və 4 saylı Şərhi tətbiq etməklə İcarənin olub olmadığını müəyyənləşdirdiyi qiymətləndirmələrinə əsaslandı.

Yuxarıda göstərilənlərə əsasən 01 yanvar 2019-cu il tarixinə:

- 492 AZN məbləğində aktivdən istifadə hüququ tanındı;
- 479 AZN məbləğində icarə öhdəlikləri tanındı;
- 13 AZN məbləğində əvvəlki icarələr üzrə qabaqcadan ödənişlər silindi.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Mühasibat uçotu siyasətində və qeydlərində dəyişikliklər (davamı)

16 saylı MHBS-İcarələr (davamı)

01 yanvar 2019-cu il tarixinə icarə öhdəlikləri 31 dekabr 2018-ci il tarixinə əməliyyat icarəsi öhdəlikləri ilə aşağıdakı kimi uyğunlaşdırılmışdır:

31 dekabr 2018-ci il tarixinə əməliyyat icarəsi öhdəliyi	566
01 yanvar 2019-cu il tarixinə artan borc öhdəlikləri üzrə orta çəkili faiz dərəcəsi	9%
01 yanvar 2019-cu il tarixinə icarə diskontlaşdırılmış əməliyyat icarəsi öhdəlikləri	**479**

(b) 16 saylı MHBS əsasında yeni uçot siyasətinin xülasəsi

Aşağıda ilkin tətbiq tarixindən etibarən 16 saylı MHBS-nin qəbul edilməsindən sonra Qrupun yeni uçot siyasəti verilmişdir:

Aktivdən istifadə hüququ

Qrup Aktivdən istifadə hüququnu lizinqin başlanma tarixində tanıyır (yəni əsas aktivin istifadəyə hazır olduğu tarix). Aktivdən istifadə hüququ ilkin dəyərindən yığılmış köhnəlmə və dəyərsizləşmə çıxılmaqla qiymətləndirilir və lizinq öhdəliklərinin yenidən ölçülməsi üçün düzəliş edilir. Aktivdən istifadə hüququnun dəyərinə ilkin tanınmış lizinq öhdəlikləri, yaranmış ilkin birbaşa xərclər və alınmış lizinq imtiyazları çıxılmaqla başlanma tarixində və ya ondan əvvəl lizinq üzrə edilmiş ödənişlər daxildir.

Qrupun lizinq müddətinin sonunda lizinqə götürülmüş aktivin mülkiyyət hüququna sahib olacağına dair əsaslı dərəcədə əminliyi olduğu hallardan başqa tanınmış Aktivdən istifadə hüququ onun lizinq müddəti və təxmini yararlılıq müddətindən ən az olanı ilə düz xətt metodu tətbiq etməklə amortizasiya edilir. Aktivdən istifadə hüququ dəyərsizləşməyə məruz qalır.

İcarə öhdəlikləri

Lizinqin başladığı tarixdə Qrup lizinq öhdəliyini lizinq müddətində yerinə yetiriləcək ödənişlərin cari dəyəri ilə tanıyır. Lizinq ödənişlərinə alınacaq hər hansı imtiyazlar çıxılmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla), indeksdən və faizdən asılı olan dəyişkən lizinq ödənişləri və qalıq dəyər zəmanəti altında ödənilməsi gözlənilən məbləğlər daxildir. Əgər lizinq şərtləri Qrupun lizinqin ləğvi seçimi üçün ödənişlərini əks etdirirsə, lizinq ödənişlərinə Qrupun istifadə edəcəyinə əmin olduğu alış hüququ seçiminin qiyməti və lizinqin ləğvinə görə ödənilən cərimələr də daxil edilir. İndeksdən və faizdən asılı olmadan dəyişən lizinq ödənişləri bu ödənişlərə səbəb olan şərtlər və hadisələrin baş verdiyi dövrdə xərc kimi tanınır.

Qısamüddətli lizinqlər və aşağı dəyərli aktivlərin lizinqi

Qrup qısamüddətli lizinqlər üçün standartın təklif etdiyi istisnanı tətbiq edir (başlanma tarixindən 12 ay və ya daha az lizinq müddəti olan və alış hüququ seçimi ehtiva etməyən lizinqlər). Qrup həmçinin dəyəri aşağı hesab olunan ofis avadanlıqlarının lizinqlərinə aşağı dəyərli aktivlərin lizinqinə dair təklif olunan istisnanı da tətbiq edir. Qısamüddətli lizinqlər və aşağı dəyərli lizinqlərin ödənişləri lizinq müddəti ərzində düz xətt metodu ilə xərc kimi tanınır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Mühasibat uçotu siyasətində və qeydlərində dəyişikliklər (davamı)

Yenilənmə ehtimalları olan müqavilələrin lizinq müddətinin müəyyənləşdirilməsində əhəmiyyətli mülahizə

Qrup lizinq müddətini lizinqin ləğvi mümkün olmayan müddət kimi müəyyənləşdirir. Bunun baş verməsinə əhəmiyyətli dərəcədə əminlik olduğu halda lizinq müddətinin uzadılması seçimi və ya baş verməyəcəyinə dair əminlik olduğu halda lizinqin ləğv olunması müddəti də daxildir.

Qrup yeniləmə seçimini həyata keçirməyə əsaslı dərəcədə əmin olub olmadığını qiymətləndirmək üçün qərar qəbul edir. Yəni, yenilənmənin həyata keçirilməsi üçün iqtisadi stimul yaradan bütün müvafiq amilləri nəzərə alır. Qrup başlanma tarixindən onun yeniləmə seçimindən (məsələn, biznes strategiyasında dəyişiklik) istifadə etmək (və ya etməmək) qabiliyyətinə təsir edən və öz nəzarətində olan hər hansı bir əhəmiyyətli hadisə və dəyişiklik olduğu halda lizinq müddətini yenidən qiymətləndirir.

Maliyyə vəziyyəti haqqında hesabatda və mənfəət və ya zərər haqqında hesabatda tanınan məbləğlər

Qrup 31 dekabr 2019-cu il tarixində bitən il üzrə qısamüddətli lizinqlərdən 784 AZN icarə xərci tanımışdır.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyat zamanı aktivin satılması üçün alına bilən və ya öhdəliyi köçürmək üçün ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya onu maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda mövcud olan (təshih edilməmiş) bazar qiymətləri.
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları.
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)

Konsolidasiya edilmiş maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

Amortizasiya olunmuş maya dəyəri əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla maliyyə alətinin ilkin tanındığı məbləğdir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri ayrıca göstərilmir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Maliyyə alətlərinin ilkin tanınması

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərltərlə həyata keçirilən" alış və satışlar) Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

Maliyyə alətlərinin təsnifatı

01 yanvar 2018-ci il tarixindən, ilkin tanımada maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər hesabına ədalətli dəyərdə ("MZƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və

- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Maliyyə alətlərinin təsnifatı (davamı)

Maliyyə aktivi (və ya, müvafiq hallarda, maliyyə aktivinin bir hissəsi və ya oxşar maliyyə aktivlər qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Qrup ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Qrup amortizasiya olunmuş dəyərində və ya DMGƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

Maliyyə alətlərinin yenidən təsnifi

Maliyyə aktivləri Qrupun maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

Maliyyə alətlərinin dəyərsizləşməsi – GKZ üzrə kredit zərəri ehtiyatı

Qrup AD və DMGƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə GKZ-u perspektiv əsasda ölçür. Qrup GKZ-u ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. GKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri GKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatında göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, GKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır. DMGƏD-də borc alətləri üçün GKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

Dəyərsizləşmədə "Sadələşdirilmiş yanaşma"

9 saylı MHBS müəssisələrə ticarət debitor borcları, müqavilə aktivləri və lizinq debitor borcları üçün sadələşdirilmiş yanaşma tətbiq etməyə imkan verir. Sadələşdirilmiş yanaşma, müəssisələrə kredit riskinin əhəmiyyətli dərəcədə artımını müəyyənləşdirmədən bütün bu aktivlər üzrə ömürlük gözlənilən zərərləri tanımağa imkan verir. Müəyyən uçot siyasəti seçimlərinə tətbiq olunur:

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Dəyərsizləşmədə "Sadələşdirilmiş yanaşma" (davamı)

- Ticarət debitor borcları və əhəmiyyətli bir maliyyələşdirmə komponenti olmayan müqavilə aktivləri üçün ömürlük gözlənilən zərər ehtiyatını tanımaq tələb olunur (yəni müəssisə həmişə sadələşdirilmiş yanaşma tətbiq etməlidir).

- Digər ticarət debitor borcları, digər müqavilə aktivləri, əməliyyat lizinqi debitor borcları və maliyyə lizinqi debitor borcları üçün bu, hər bir aktiv növü üçün ayrıca tətbiq oluna bilən uçot siyasəti seçimidir (lakin müəyyən bir növün bütün aktivlərinə aiddir).

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda GKZ üzrə ehtiyatın təqdim edilməsi

GKZ üzrə zərər ehtiyatları konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Qrup, kredit öhdəliyi komponenti üzrə GKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Qrup hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

Maliyyə aktivlərinin silinməsi

Qrup bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Qrup, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi halda, hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər; lakin bərpa üçün ağlabatan gözlənti yoxdur.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Maliyyə öhdəlikləri

Digər maliyyə öhdəlikləri

Digər maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

Kreditor borcları

Kreditor borcları təchizatçılardan mal və ya xidmətlərin yerinə yetirilməsi əvəzində ödənilmiş öhdəliklərdir. Əgər ödəmə öhdəliyi bir il və ya daha az müddətdə ödənilməlidirsə, (yaxud cəmi iş müddətindən artıq deyilsə) kreditor borcları cari öhdəliklər kimi təsnif olunur.

Kreditor borcları effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə təqdim edilir.

Faiz hesablanan kreditlər və borclar öhdəlikləri

Bütün kreditlər və borclar əvvəlcə birbaşa əməliyyat xərcləri çıxılmaqla alınan əvəzin ədalətli dəyəri ilə tanınır. İlkin tanınmadan sonra faizli kreditlər və borclar effektiv faiz metodundan istifadə edərək amortizasiya dəyəri ilə ölçülür. Qazanclar və zərərlər öhdəliklərin tanınmaması, habelə amortizasiya prosesində ümumi mənfəət haqqında hesabatda qeyd olunur.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması

Maliyyə öhdəliklərinin tanınması yalnız və yalnız Qrup öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda, yaxud müddəti başa çatdıqda dayandırılır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, yaxud mövcud öhdəliyə əhəmiyyətli düzəlişlər edilərsə, belə əvəzləmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilə bilən depozitlər və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidlik dərəcəsinə malik olan investisiyalar daxildir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Əsas vəsaitlər

Əsas vəsaitlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır.

Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əsas vəsaitlərə daxildir.

Maddi aktivlərin işlənib təkmilləşdirilməsi

Boru kəmərləri və ötürücü qurğular kimi infrastruktur qurğuların tikilməsi, quraşdırılması və ya tamamlanması xərcləri maddi aktivlərin daxilində xüsusiyyətlərinə uyğun olaraq kapitallaşdırılır. Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Hər bir hesabat tarixində rəhbərlik əsas vəsaitlər üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri, aktivin və ya pul vəsaitlərini yaradan biznes vahidlərinin satış xərcləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə üzrə hər hansı zərər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda qeydə alınır. Dəyərsizləşmə üzrə zərərin daha olmamasına və ya azala biləcəyinə dair əlamətlər olduqda, aktiv və ya pul vəsaitlərini yaradan vahidlər üzrə əvvəlki illərdə qeydə alınmış dəyərsizləşmə zərəri ləğv edilir.

Əsas vəsaitlərin satışından yaranan gəlir və zərər satışdan əldə olunmuş vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.

Köhnəlmə

Binalar, obyektlər, ötürücü qurğular üçün köhnəlmə onların gözlənilən faydalı istifadə müddəti üzrə düz xətt metodu ilə hesablanır. Maşın və avadanlıqlar və nəqliyyat vasitələri üzrə köhnəlmə azalan qalıq dəyəri metodunu istifadə etməklə hesablanır. Köhnəlmənin azalan qalıq dəyəri metodu aktivin maya dəyəri, qalıq dəyəri və faydalı istifadə müddəti əsasında müəyyən olunmuş köhnəlmə formulasını tətbiq etməklə hesablanır.

Qrupun əsas vəsaitlərinin təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

Binalar və tikililər	20-60 il
Obyektlər və ötürücü qurğular	3-40 il
Maşın və avadanlıqlar	3-15 il
Nəqliyyat vasitələri	3-10 il
Ofis avadanlıqları	3-8 il

Torpaq və tikintisi tamamlanmamış aktivlər üzrə köhnəlmə hesablanmır.

Əsas vəsaitlərin faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər perspektiv qaydada uçota alınır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Əsas vəsaitlər (davamı)

Köhnəlmə (davamı)

Aktiv artıq köhnəlmiş və istismar müddətinin sonunda olacağı vəziyyətdə olarsa, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmini məbləğ, satış üzrə təxmini xərclər çıxılmaqla, aktivin qalıq dəyərinə bərabər olur. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə etməyi nəzərdə tutursa və ləğv etmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın tarixində nəzərdən keçirilir və təshih edilir.

Mal-material ehtiyatları

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərlə qeydə alınır. Maya dəyəri ilk mədaxil – ilk məxaric metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir.

Borclar üzrə məsrəflər

Nəzərdə tutulan istifadəyə və satışa hazır olması üçün əhəmiyyətli vaxtın sərf olunmasını tələb edən aktivin satın alınması, tikintisi və ya istehsalına birbaşa aid edilə bilən borclar üzrə məsrəflər müvafiq aktivlərin dəyərinin bir hissəsi kimi kapitallaşdırılır. Bütün digər borclar üzrə məsrəflər yarandığı dövrdə xərclərə silinir. Borclar üzrə məsrəflər Qrupun vəsaitlərin borc götürülməsi ilə əlaqədar çəkdiyi faizlər və digər xərclərdən ibarətdir.

Bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri kapitallaşdırılır.

Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyəri ilə qeydə alınır. Qeyri-maddi aktivlərə hüquqlar, lisenziyalar və proqram təminatı daxildir.

Qeyri-maddi aktivlərin istifadə müddəti məhdud və ya qeyri-müəyyən hesab edilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər iqtisadi müddəti ərzində amortizasiyaya silinir, dəyərsizləşmə əlaməti mövcud olanda isə dəyərsizləşmə baxımından qiymətləndirilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya dövrü və amortizasiya metodu ən azı hər bir hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir. Gözlənilən istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri məcmu gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər amortizasiyaya silinmir, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə baxımından yoxlanılır. Qeyri-müəyyən istifadə müddətinin hələ də münasib olmasını müəyyən etmək üçün qeyri-müəyyən istifadə müddəti hər il yenidən nəzərdən keçirilir. Artıq münasib deyilsə, istifadə müddəti perspektiv qaydada qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Qrup hər bir hesabat tarixində aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı belə əlamət olarsa və ya aktiv üçün illik dəyərsizləşmə testinin aparılması tələb olunarsa, Qrup aktivin bərpa edilə bilən məbləği barədə ehtimal edir. Aktivin bərpa edilə bilən məbləği satış məsrəfləri çıxılmaqla aktivin və ya pul vəsaitlərini yaradan vahidin (PVYV) ədalətli dəyəri və onun istifadə dəyərindən daha yüksək olanıdır və hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün fərdi olaraq müəyyən edilir. Aktivin və ya PVYV-nin balans dəyəri onun bərpa edilə bilən məbləğindən çox olduğu hallarda, aktiv dəyərsizləşmiş hesab edilir və onun dəyəri bərpa edilə bilən məbləğədək azaldılır. İstifadə dəyərinin qiymətləndirilməsi zamanı ehtimal edilən pul vəsaitlərinin gələcək hərəkəti pulun vaxt dəyərinin cari bazar qiymətləndirilməsini və aktivlə bağlı riskləri əks etdirən vergi öncəsi diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə endirilir. Satış xərcləri çıxılmaqla ədalətli dəyərin təyin olunması zamanı yaxınlarda bazar əməliyyatları olmuşdursa, onlar nəzərə alınır. Belə əməliyyatlar təyin oluna bilmirsə, müvafiq qiymətləndirmə metodundan istifadə edilir. Bu hesablamalar qiymətləndirmə əmsalları, səhmləri bazarda sərbəst dövriyyədə olan törəmə müəssisələr üçün elan edilmiş səhm qiymətləri və digər ədalətli dəyər göstəriciləri ilə təsdiq olunur.

Dəyərsizləşmənin hesablanmasını Qrup ətraflı büdcə və proqnoz hesablamaları ilə əsaslandırır. Bunlar Qrupun fərdi aktivlərinin aid edildiyi hər bir PVYV üçün ayrıca hazırlanır. Bu büdcə və proqnoz hesablamaları adətən beş illik müddəti əhatə edir. Daha uzun müddətlər üçün uzunmüddətli artım dərəcəsi hesablanır və beş ildən sonra layihənin gələcək pul vəsaitləri hərəkətlərinə tətbiq edilir.

Davam edən əməliyyatların dəyərsizləşmə zərərləri, o cümlədən mal-material ehtiyatlarının xalis satış dəyərinədək silinmələri konsolidasiya edilmiş maliyyə nəticələri haqqında hesabatda dəyərsizləşmiş aktivin funksiyasına uyğun xərc kateqoriyalarında uçota alınır. İstisna olaraq əvvəlcədən yenidən qiymətləndirilmiş əmlak üzrə yenidən qiymətləndirmə digər məcmu gəlirdə əks etdirilir. Bu halda dəyərsizləşmə həmçinin əvvəlki yenidən qiymətləndirmənin məbləğinədək digər ümumi gəlirdə tanınır.

Qudvil istisna olmaqla aktivlər üçün əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığını və ya azaldığını göstərən əlamətlərin mövcud olub-olmadığını müəyyən etmək üçün hər bir hesabat tarixində qiymətləndirmə aparılır. Belə əlamət mövcud olarsa, Qrup aktivin və ya PVYV-nin bərpa edilə bilən məbləğini ehtimal edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərərin effekti yalnız sonuncu dəyərsizləşmə zərəri tanındığı vaxtdan etibarən aktivin bərpa edilə bilən məbləğinin müəyyən edilməsi üçün istifadə edilmiş fərziyyələrdə hər hansı dəyişiklik olduğu halda yığışdırılır.

Zərərin effektinin yığışdırılması aktivin balans dəyərinin onun bərpa edilə bilən məbləğindən və ya əvvəlki illərdə aktiv üçün heç bir dəyərsizləşmə zərəri tanınmamış olduğu halda, amortizasiya çıxılmaqla, müəyyən ediləcək balans dəyərindən çox olmamasını təmin edəcək şəkildə məhdudlaşdırılır. Zərərin effektinin belə yığışdırılması gəlir haqqında hesabatda tanınır, lakin aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınanda, yığışdırma yenidən qiymətləndirmə artımı kimi əks etdirilir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Mənfəət vergisi

Konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatda əks etdirilir.
Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış vergi aktivi və öhdəliklərin vergi bazası və konsolidasiya edilmiş maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır. Təxirə salınmış vergi aktivi, qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizə ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktivi və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

Əlavə Dəyər Vergisi

Vergi qanunvericiliyi satış və alışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) əvəzləşdirilərək ödənilməsinə icazə verir.

ƏDV üzrə ödəniləcək məbləğlər maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, qanunvericilikdə nəzərdə tutulan "vaxt metodu" əsasında sifarişçilərə satışlar tanınanda vergi orqanları vasitəsilə dövlət büdcəsinə ödəniləcək, satışlara aid olan ƏDV məbləğindən ibarətdir. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş satışa aid olan ƏDV də (təxirə salınmış ƏDV) ƏDV üzrə ödəniləcək məbləğlərə daxil edilir. Debitor borclarının dəyərsizləşməsi ilə bağlı ehtiyat ayrıldıqda, dəyərsizləşmə zərəri, müvafiq hallarda ƏDV daxil olmaqla debitorun ümumi məbləğində yazılır. ƏDV üzrə təxirə salınmış öhdəlik debitor vergi məqsədləri üçün silinənə qədər saxlanılır.

Əvəzləşdirilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş alışlara aiddir. Əvəzləşdirilə bilən ƏDV alışlar üçün ödəmə aparıldıqda satış üzrə ƏDV hesabı ilə əvəzləşdirilə bilər.

Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar

Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddəti və ya məbləği olan öhdəliklər daxildir. Qrupun keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəlikləri olanda həmin öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar uçota alınır. Gələcək əməliyyat zərərləri üçün ehtiyatlar uçota alınmır.

Bir sıra analoji öhdəliklər mövcud olarsa, həmin öhdəliklərin yerinə yetirilməsi məqsədilə resursların sərf olunması ehtimalı ümumilikdə bütün öhdəliklər üçün müəyyən edilir. Ehtiyat öhdəliklə eyni sinfə daxil olan hər hansı ayrıca maddə üzrə resursların sərf olunması ehtimalı az olduqda belə qeydə alınır.
Ehtiyatlar vergidən əvvəl faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəl faiz dərəcəsi pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi uçota alınır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Dövlət investisiyaları

Dövlət investisiyaları pul qoyuluşları, digər dövlət müəssisələrinin köçürülməsi və ya Dövlətin digər müəssisələrdəki payının bütövlükdə və ya qismən köçürülməsi formasında həyata keçirilir. Qrupa dövlət müəssisələrinin köçürülməsi köçürülən müəssisənin ədalətli dəyəri olan məbləğdə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat vasitəsilə qoyuluş kimi tanınır (Dövlət digər müəssisələrdəki payını köçürdüyü halda-müvafiq müəssisənin ədalətli dəyərində köçürülmüş pay).

Gəlirlərin uçotu

Gəlirlər Qrupun adi fəaliyyətinin gedişində satılmış mallar və ya göstərilmiş xidmətlərə görə aldığı və ya alacağı məbləğin ədalətli dəyərini əks etdirir. Gəlirlər, Qrupun daxilində aparılan satışları eliminasiya etməklə, ƏDV, geri qaytarılma, güzəşt və satışdan tutulan digər vergilər (əgər varsa) çıxılmaqla göstərilir.

Suyun satışından və kanalizasiya xidmətlərindən gəlirlər mütəmadi olaraq su sayğaclarının göstəriciləri (aylıq əsasla yoxlanılır) və sayğacın son göstəricisindən hesabat dövrünün sonunadək təxmin edilmiş müştərinin sudan istifadəsi əsasında uçota alınır. Azərbaycan Respublikasında son istifadəçi üçün su qiymətləri və çirkab su üzrə tariflər Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən nizamlanır.

Xidmətlərin satılması müqavilə üzrə göstəriləcək ümumi xidmətlərin müəyyən bir hissəsi olaraq faktiki göstərilmiş xidmətlər əsasında qiymətləndirilmiş konkret əməliyyatın tamamlanma mərhələsinə istinadən həmin xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır.

Xərclər

Xərclər konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatda funksiyalar üzrə təqdim edilir. Xərclərin xüsusiyyətlərinin təsnifatı Qrupun departamentləri və törəmə müəssisələrinin əməliyyat funksiyalarına əsaslanır.

İşçilərin mükafatlandırılması

Əmək haqları, maaşlar, Azərbaycan Respublikasının Sosial Müdafiə Fonduna ayırmalar, ödənilmiş illik məzuniyyət və xəstəliklə bağlı məzuniyyət, mükafatlar və qeyri-monetar faydalar (misal üçün, sağlamlıqla bağlı xidmətlər) Qrupun işçiləri müvafiq xidmətləri göstərdiyi ildə hesablanır.

Əlaqəli tərəflər

Əlaqəli tərəflər haqqında məlumat *"Əlaqəli tərəflər barədə açıqlamalar"* adlı 24 saylı MUBS-yə uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir. Dövlət Qrupun üzərinə Azərbaycan Respublikasındakı müştəriləri dövlətin nəzarət etdiyi qiymətlərlə davamlı olaraq su ilə təchiz etmək öhdəliyini qoymuşdur.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

Yenidən təsnifləşdirmə

Cari ilin təqdimatına uyğunlaşdırmaq məqsədilə keçən ilin konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda müəyyən yenidən təsnifləşdirmə edilmişdir. Bu yenidən təsnifləşdirmə nəticəsində Qrupun əməliyyatlarının nəticələri və kapitalına əhəmiyyətli təsir olmamışdır.

	Yenidən təsnifləşdirmə-dən əvvəl	Yenidən təsnifləşdirmə	Yenidən təsnifləşdirmə-dən sonra
31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat			
Ticarət və digər kreditor borcları	(59,828)	74,537	14,709
Əsas vəsaitlərin alınması	(45,307)	34,463	(10,844)
Dövlət investisiyalarından daxilolmalar	109,000	(109,000)	–

3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi

Cari ildə Qrup Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (bundan sonra MUBSŞ) və MUBSŞ-nin Maliyyə Hesabatlarının Beynəlxalq Şərhləri Komitəsi (bundan sonra MHBŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2019-cu il tarixində başa çatan hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Bu yeni standart və şərhlərin qəbul edilməsi Qrupun mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir. Aşağıda qeyd olunan yeni və ya düzəliş edilmiş standartlar və şərhlər ilk dəfə 01 yanvar 2019-cu il tarixindən etibarən başlayan maliyyə hesabat dövrlərində tətbiq olunur:

23 saylı Şərh – Mənfəət vergisi ilə bağlı qeyri-müəyyənlik

Şərh vergi əməliyyatları zamanı 12 saylı MUBS "Gəlir Vergisi"-nin tətbiqinə təsir göstərən qeyri-müəyyənlik aşkar olunduqda mənfəət vergisinin uçotunu nəzərdən keçirir. Bu şərh 12 saylı MUBS-dən kənar vergilərə və ya yığımlara şamil edilmir və müəyyən vergi əməliyyatları ilə əlaqəli faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir. Bu təfsir xüsusi olaraq aşağıdakıları əhatə edir:

• Müəssisənin qeyri-müəyyən vergi yanaşmalarını ayrıca nəzərdən keçirib keçirməməsi;

• Müəssisənin vergi orqanları tərəfindən vergi əməliyyatlarının araşdırılması barədə irəli sürdüyü fərziyyələr;

• Müəssisənin vergiyə cəlb olunan mənfəətini (və yaxud vergi zərəri), vergi bazalarını, istifadə olunmamış vergi zərərlərini, vergi kreditlərini və dərəcələrinin necə müəyyənləşdirdiyi;

• Müəssisənin faktlara və mövcud vəziyyətdəki dəyişikliklərə necə yanaşdığı.

Qrup hər bir qeyri müəyyən vergi yanaşmasını ayrılıqda və ya bir neçə qeyri-müəyyən vergi yanaşması ilə birlikdə nəzərə alıb almayacağını müəyyənləşdirir və bu qeyri-müəyyənliyin həllini daha yaxşı tənzimləyən yanaşmadan istifadə edir.

Qrup mənfəət vergisi yanaşması üzrə qeyri-müəyyənliklərin aradan qaldırılmasında əhəmiyyətli mülahizələri tətbiq edir. Qrup mürəkkəb mühitdə fəaliyyət göstərdiyinə görə, qeyd edilən Şərhin maliyyə hesabatlarına təsir dərəcəsi Qrup tərəfindən qiymətləndirilir. Şərh qəbul edildikdən sonra Qrup, xüsusilə köçürmə qiymətləriylə bağlı qeyri-müəyyən vergi mövqelərinin mövcud olub olmadığını müəyyən edir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi (davamı)

Müəssisə və törəmə şirkətlərin müxtəlif ölkələrdə vergi sənədlərinə köçürmə qiymətləri ilə əlaqədar xüsusi imtiyazlar şamil edilə bilər və eyni zamanda yerli vergi orqanları bu prosedurlara dəyişiklik edə bilər.

Qrup vergi uyğunluğuna və köçürmə əməliyyatlarına dair apardığı tədqiqata əsasən vergi qaydalarının yerli vergi orqanları tərəfindən qəbul olunduğuna qənaət edir. Şərh Qrupun maliyyə hesabatlarına əsaslı təsir göstərməmişdir.

9 saylı MHBS -yə düzəlişlər – "Mənfi kompensasiyanı nəzərdə tutan qabaqcadan ödəmə növü"

9 saylı MHBS-yə əsasən borc aləti amortizasiya hesablanmış dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes modeli çərçivəsində saxlanılsın. 9 saylı MHBS-yə edilən düzəlişlər izah edir ki, müqavilənin vaxtından əvvəl ləğvinə səbəb olan hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq maliyyə aktivi üzrə YƏMFÖ meyarı tətbiq olunur.

Bu dəyişikliklərin Qrupun maliyyə hesabatlarına heç bir təsiri yoxdur.

28 saylı MHBS-yə düzəlişlər – Asılı və Birgə müəssisələrdə uzunmüddətli maraqlar

Düzəlişlər izah edir ki, müəssisə 9 saylı MHBS-ni asılı və birgə müəssisələrdəki kapital payı metodunun tətbiq edilmədiyi uzunmüddətli faizlərə tətbiq edir, əslində isə asılı və birgə müəssisələrə xalis investisiyanın bir hissəsini təşkil etdiyini aydınlaşdır. 9 saylı MHBS-də gözlənilən kredit zərəri modelinin belə uzunmüddətli faizlərə tətbiq olunması nəzərdə tutulduğu üçün bu açıqlama aktualdır. Düzəlişlər, həmçinin 9 saylı MHBS tətbiq edərkən asılı və ya birgə müəssisənin zərərlərini və ya 28 saylı MUBS-yə əsasən xalis investisiya düzəlişləri kimi tanınan xalis investisiya üzrə dəyərsizləşmə zərərlərini nəzərə almır.

Qrupun asılı və birgə müəssisələrdə uzunmüddətli payları olmadığı üçün bu düzəlişlər maliyyə hesabatlarına təsir göstərməmişdir.

MHBS standartlarına 2015-2017-ci illər üzrə illik təkmilləşdirmələr

3 saylı MHBS müəssisələrin birləşməsi

Düzəlişlər, bir müəssisə müştərək əməliyyatları olan digər müəssisəyə nəzarət hüququ əldə etdikdə müəssisələrin birləşməsinə dair mərhələli şəkildə yerinə yetirilən tələbləri, o cümlədən birgə əməliyyatın aktiv və öhdəliklərində əvvəllər tutulan faizləri ədalətli dəyərdə yenidən qiymətləndirməyə dair tələbləri aydınlaşdırır. Bununla, alıcı birgə əməliyyatda əvvəllər tətbiq olunan faizləri yenidən qiymətləndirir.

Müəssisələr bu düzəlişləri könüllü erkən tətbiqə icazə verilməklə, ilk tətbiq tarixi 01 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrləri üçün tanıyır. Qrupun birgə nəzarət hüququ ilə həyata keçirdiyi əməliyyatları mövcud olmadığı üçün bu düzəlişlər Qrupun maliyyə hesabatlarına təsir göstərmir.

11 saylı MHBS Birgə Razılaşmalar

Ortaq əməliyyatlarda iştirak edən, lakin birgə nəzarət hüququ olmayan müəssisə, 3 saylı MHBS-də müəyyən edilmiş ortaq əməliyyatlara birgə nəzarəti əldə edə bilər. Düzəliş izah edir ki, bu birgə razılaşmalarda daha əvvəl tətbiq olunan fazilər yenidən qiymətləndirilmir.

Müəssisələr bu düzəlişləri 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün erkən könüllü tətbiqə icazə verilməklə tətbiq edir. Qrup birgə razılaşma ehtiva edən əməliyyat həyata keçirmədiyi üçün bu düzəlişlər Qrupun maliyyə hesabatlarına təsir göstərmir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi (davamı)

12 saylı MUBS Mənfəət Vergisi

Düzəlişlər izah edir ki, dividendlərin mənfəət vergisi nəticələri mülkiyyətçilərə paylamalara deyil, bölüşdürülə bilən mənfəəti yaradan keçmiş əməliyyatlar və ya hadisələrlə daha çox bağlıdır. Belə ki, müəssisə dividendlərin vergi nəticələrini həmin keçmiş əməliyyat və hadisələri ilkin olaraq harada tanıdığından asılı olaraq mənfəət və ya zərərdə, digər məcmu gəlirdə və ya kapitalda tanıyır. Müəssisələr düzəlişləri 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün erkən könüllü tətbiqə icazə verilməklə tətbiq edir. Müəssisə bu düzəlişləri ilk tətbiq etdikdə, onları müqayisəli dövrün əvvəlində və ya sonra tanınan dividentlərin gəlir vergisi nəticələri ilə əlaqələndirir. Qrupun hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Qrupun maliyyə hesabatlarına təsiri gözlənilmir.

23 saylı MUBS Borclar üzrə məsrəflər

Düzəlişlər aydınlaşdırır ki, müəssisə, ilkin olaraq müəyyənləşdirilmiş aktivin inkişaf etdirilməsi üçün götürülən borclara aktivin məqsədli istifadə və ya satılmağa hazırlanması üçün zəruri olan bütün fəaliyyətlər başa çatdıqdan sonra ümumi borcların bir hissəsi kimi yanaşır. Müəssisələr bu düzəlişləri tətbiq etdiyi ilk illik hesabat dövründə və ya sonrasında çəkilmiş borc xərclərinə şamil edir. Müəssisələr bu düzəlişləri erkən tətbiqinə icazə verilməklə, 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edir. Qrupun hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Qrupun maliyyə hesabatlarına təsiri gözlənilmir.

Plana düzəliş, azalma və ya hesablaşma – 19 saylı MUBS-yə düzəlişlər

19 saylı MUBS-yə edilən düzəlişlər hesabat dövründə rəsmi plana düzəliş, azaldılma və ya hesablaşma baş verdikdə mühasibat uçotunun tənzimlənməsinə yönəldilib. Düzəlişlər, illik hesabat dövründə rəsmi plana düzəliş, azalma və ya hesablaşma baş verdikdə, müəssisə dəyişikliklər edildikdən sonra tətbiq olunan planda müəyyən edilmiş müavinət öhdəliyi (aktivi) və plan aktivlərinin hadisədən sonra yenidən qiymətləndirilməsi məqsədilə aktuari fərziyyələrindən istifadə edərək dövrün qalan hissəsi üçün cari xidmət dəyərini müəyyənləşdirməlidir. Müəssisədən, plan dəyişikliyindən, azaldılmadan və ya hesablaşmadan sonrakı dövrdə plan çərçivəsində təklif olunan müavinət öhdəliyini (aktivi) əks etdirən müəyyənləşdirilmiş mənfəət öhdəliyini (aktiv) istifadə etməklə xalis faizi və xalis müəyyən edilmiş müavinət öhdəliyinin (aktivin) yenidən qiymətləndirilməsi üçün istifadə olunan diskont dərəcəsini müəyyən etmək tələb olunur. Düzəlişlər Qrupun maliyyə hesabatlarına təsir göstərmir, çünki dövr ərzində hər hansı plan dəyişiklikləri, azalma və ya hesablaşmalar qeydə alınmamışdır.

Dərc olunmuş, lakin hazirda qəbul olunmamış standartlar və şərhlər

Aşağıdakı verilən dərc olunmuş, lakin 31 dekabr 2019-cu il tarixində başa çatan illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və ya dəyişdirilmiş Standartlarının və Şərhlərin Qrup tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

17 saylı MHBS Sığorta müqavilələri *(Qüvvədə olma tarixi: 01 yanvar 2021-ci il (01 yanvar 2022-ci ilədək uzadıla bilər))*

17 saylı MHBS 2017-ci ilin may ayında 4 saylı MHBS Sığorta Müqavilələri ilə əvəz edilmişdir. Standart hər hesabat dövründə təxminlərin yenidən ölçüldüyü cari ölçmə modelini tələb edir. Müqavilələr aşağıda göstərilən əsaslar vasitəsilə ölçülür:

- diskontlaşdırılmış ehtimal-orta çəkili pul vəsaitlərinin hərəkəti ilə,
- açıq risk tənzimlənməsi ilə və,
- qüvvədə olma müddəti ərzində gəlir kimi tanınan müqavilənin əldə edilməmiş mənfəətini təmsil edən müqavilə üzrə xidmət marjası (MXM).

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi (davamı)

Dərc olunmuş, lakin hazirda qəbul olunmamış standartlar və şərhlər (davamı)

Standart uçot dərəcələrinin dəyişməsini ya mənfəət və ya zərər haqqında hesabatda ya da birbaşa digər məcmu gəlirdə tanımaq arasında seçim etməyə imkan verir. Əldə olunan qərar sığortaçıların maliyyə aktivlərini 9 saylı MHBS-yə nə dərəcədə uyğun olduğunu əks etdirir. Əlavə olaraq, qeyri-həyat sığortaları üzrə qeyd olunan sadələşdirilmiş mükafat bölgüsü yanaşması, qısa müddətli müqavilələr üçün öhdəlik hüququna icazə verir. Həyat sığortası şirkətləri tərəfindən yazılmış bəzi müqavilələr üçün 'dəyişkən ödəniş haqqı yanaşması' adlanan ümumi ölçü modelində sığorta sahiblərinin əsas maddələrdən əldə olunan gəlirdə iştirak payı tanınır. "Dəyişkən ödəniş haqqı yanaşması" tətbiq edilərkən, əsas maddələrin ədalətli dəyərində olan dəyişikliklərindəki müəssisənin payı MXM-ə daxil edilir. Bu modeldən istifadə edən sığortaçıların nəticələri, ümumi modelə nisbətən daha az dəyişkən olur. Yeni qaydalar, sığorta müqavilələri və ya investisiya müqavilələri dərc edən bütün təşkilatların maliyyə hesabatlarına və əsas fəaliyyət göstəricilərinə təsir edəcəkdir.

Əhəmiyyətlilik meyarı *– 1 saylı MUBS-yə və 8 saylı MUBS-yə düzəlişlər (Qüvvədə olma tarixi: 01 yanvar 2020).*
MUBSK 1 saylı MUBS Maliyyə Hesabatlarının Təqdim Edilməsi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Maliyyə Hesabatı üçün Konseptual Çərçivə daxilində əhəmiyyətlilik anlayışını sabit şəkildə tərifləndirən 8 saylı MUBS Uçot Siyasəti, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Səhvlərə, məlumatın nə dərəcədə əhəmiyyətli olduğunu dəqiqləşdirən düzəlişləri, eləcə də 1 saylı MUBS-yə əsasən maddi əhəmiyyətli hesab olunmayan məlumatlara dair dəyişiklikləri tətbiq etdi. Düzəlişlər, xüsusilə:

- Gizli məlumatlara dair tövsiyələrin bu məlumatı təqdim etməmə və ya yanlış təqdim etmə hallarının eyni səviyyədə əhəmiyyətli olduğunu və müəssisənin əhəmiyyətliliyi bütövlükdə maliyyə hesabatları kontekstində qiymətləndirdiyini izah edir;
- maliyyə hesabatlarının birbaşa yönəldildiyi "ümumi təyinatlı maliyyə hesabatlarının ilkin istifadəçiləri" ifadəsi maliyyə məlumatlarının əksəriyyəti üçün ümumi məqsədli maliyyə hesabatlarına əsaslanan "mövcud və potensial investor, borcverənlər və digər kreditorlar" olaraq təyin edilir.

Biznesin tərifi - 3 saylı MHBS-yə düzəlişlər *(Qüvvəyə minmə tarixi: 01 yanvar 2020)*

Biznesin tərifinə edilmiş düzəliş birlikdə son məhsulu ərsəyə gətirmək bacarığına malik hərəkətlərin və substantiv prosedurların mövcudluğunu tələb edir. "son məhsul" anlayışına düzəliş müştərilərə təqdim olunan mal və xidmətlərə görə əldə olunan gəlirlər, investisiya gəlirləri və digər gəlir yaradan fəaliyyətlərə diqqəti yönəltməklə yanaşı azalan xərclər və digər kiçik iqtisadi fayda şəklində gəlirləri istisna edir. Düzəlişlərin, aktivlərin alınması kimi uçota alınan daha çox satınalmalara səbəb olacağı ehtimal edilir.

Maliyyə Hesabatı üçün Yenidən işlənmiş Konseptual Əsaslar *(Qüvvəyə minmə tarixi: 01 yanvar 2020)*

Birbaşa təsiri ilə standart tənzimləmə qərarlarında istifadə ediləcək və MUBSK tərəfindən yenidən işlənib nəşr edilmiş Konseptual Əsaslar aşağıdakı əsas dəyişiklikləri ehtiva edir:

- maliyyə hesabatı məqsədi kimi idarəetmənin əhəmiyyətinin artırılması;
- neytrallıq komponenti kimi ehtiyatlılığın bərpa edilməsi;
- hüquqi şəxs və ya təşkilatın bir hissəsi kimi, hesabat verəcək müəssisənin müəyyənləşdirilməsi;
- aktiv və öhdəlik anlayışlarına yenidən baxılması;

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

3. Yeni və ya yenidən baxılmış standartların və şərhlərin qəbul edilməsi (davamı)

Dərc olunmuş, lakin hazirda qəbul olunmamış standartlar və şərhlər (davamı)

- tanınma üçün ehtimal həddinin çıxarılması və tanınmanın dayandırılmasına dair təlimat əlavə edilməsi;
- müxtəlif ölçü əsasları üzrə təlimat əlavə olunması və;
- mənfəət və ya zərərin əsas fəaliyyət göstəricisi olduğunu və prinsip etibarı ilə digər məcmu gəlirlərdəki gəlir və xərclərin maliyyə hesabatlarının aktuallığını və ya etibarlılığını artırdığı hallarda mənfəət və ya zərərdə tanınması.

Mövcud mühasibat uçotu standartlarından heç birində dəyişiklik edilməyəcəkdir. Bununla birlikdə, əməliyyatlar, hadisələr və şərtlər üçün uçot siyasətlərini müəyyənləşdirməkdə Konseptual Əsaslara etibar edən təşkilatlar mühasibat uçotu standartları ilə başqa cür əlaqələndirilməyən, yenidən işlənmiş Konseptual Əsasları 2020-ci il 01 yanvar tarixindən tətbiq etməli olacaq. Bu təşkilatlar uçot siyasətlərinin yenidən işlənmiş Konseptual Əsaslara hələ də uyğun olub olmadığını müəyyən etməlidirlər.

İnvestor və onun ortağı və ya müştərək müəssisə arasında aktivlərin satılması və ya əvəzsiz verilməsi - 10 saylı MHBS-yə və 28 saylı MHBS-yə düzəlişlər *(2015-ci ilin dekabr ayında* MUBSK *bu düzəlişin tətbiqi tarixini* MUBSK *kapital metodu ilə bağlı tədqiqat layihəsini yekunlaşdıranadək təxirə salmağı qərara aldı.)*

MUBSK 10 saylı MHBS Konsolidə edilmiş maliyyə hesabatlarına və 28 saylı MUBS ortaq və müştərək müəssisələrə investisiya qoyuluşlarına məhdud dəyişikliklər etmişdir. Dəyişikliklər investor və onun ortaq və ya müştərək müəssisələri arasında aktivlərin satışına və ya əvəzsiz ötürülməsinə dair uçot qaydalarını aydınlaşdırır. Onlar təsdiq edir ki, bu zaman uçot siyasəti qeyri-monetar aktivlərin şərikli və ya ortaq müəssisəyə satılması və ya əvəzsiz olaraq verilməsi əməliyyatının "biznes" tərkibli olub olmamasından asılıdır (3 saylı MHBS-də müəyyənləşdirildiyi kimi). Qeyd olunan qeyri-monetar aktivlər biznes tərkiblidirsə, investor aktivlərin satışından və ya əvəzsiz ötürülməsindən mənfəət və ya zərər tanıyacaqdır. Biznesi ehtiva etmirsə, mənfəət və ya zərər investor tərəfindən ortaq və ya müştərək müəssisədəki digər maraqları həddində tanınır. Düzəlişlər prospektiv şəkildə tətbiq olunur.

4. Mühüm mühasibat uçotu ehtimal və mühakimələri

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən gəlirlər, xərclər, aktivlər və öhdəliklərin hesabatdakı məbləğlərinə, əlavə edilən açıqlamalara və şərti öhdəliklərin açıqlanmasına təsir göstərə bilən fərziyyələr, ehtimallar və mühakimələr etməyi tələb edir. Bu ehtimal və mühakimələrə dair qeyri-müəyyənlik gələcək dövrlərdə təsiri olmuş aktiv və öhdəliyin balans dəyərinə əhəmiyyətli düzəliş etməyi tələb edən nəticələrə gətirib çıxara bilər.

Ehtimal və mühakimələr davamlı olaraq qiymətləndirilir və rəhbərliyin təcrübəsi və digər amillərə, o cümlədən mövcud şəraitdə məqbul sayılan gələcək hadisələrin baş verməsinin ehtimalları əsasındadır. Qrup konsolidasiya edilmiş maliyyə hesabatları hazırlandıqda mövcud parametrlər üzrə fərziyyələr və təxminlərə əsaslanır. Lakin, mövcud hadisələr və gələcək hadisələr haqqında fərziyyələr bazarda dəyişikliklərə və ya Qrupun nəzarəti xaricində baş vermiş hadisələrə görə dəyişə bilər. Belə dəyişikliklər baş verdikdə fərziyyələrdə öz əksini tapır. Həmçinin, rəhbərlik mühasibat uçotu qaydalarının tətbiqi prosesində həmin təxminləri daxil etməyən müəyyən mülahizələr edir.

Bu konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə ən mühüm təsiri olan mühakimələr və hesabat tarixində aktivlərin və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişə səbəb ola biləcək ehtimallara aşağıdakılar daxildir:

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

4. Mühüm mühasibat uçotu ehtimal və mühakimələri (davamı)

Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər

Qrup göstərdiyi fəaliyyət nəticəsində ətraf mühitə dəymiş zərərin ödənilməsi üçün təxmin edilən xərclər məbləğində ehtiyat ayırır. Ehtiyat kimi uçota alınmış məbləğ müvafiq konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun olaraq cari öhdəliyin yerinə yetirilməsi üçün tələb olunan xərclər əsasında hesablanmış ən dəqiq məbləğdir və qanunda baş vermiş əlavə və dəyişikliklər ilə əlaqədar olaraq dəyişə bilər. Dövlət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə ətraf mühitin bərpası ilə bağlı təxmin edilmiş öhdəlik sıfır məbləğində qiymətləndirilir. Bu şərtlərdən hər hansı birinin dəyişməsi Qrupun ayırdığı ehtiyatlar üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Əsas vəsaitlər və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti

Rəhbərlik əsas vəsaitlər və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq köhnəlmə və amortizasiya xərclərini müəyyən edir. Bu təxminlər Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, rəhbərlik köhnəlmə xərcini artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri balansdan siləcəkdir. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu gələcəkdə köhnəlmə faizləri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Təxirə salınmış vergi aktivinin uçotu

Təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivləri realizə oluna biləcəyi məbləğdə uçota alınır. Vergiyə cəlb olunan gələcək mənfəət və gələcəkdə yaranması ehtimal edilən vergi faydasının məbləğini ehtimal edərkən rəhbərlik son üç ilin vergiyə cəlb olunan mənfəətindən və mövcud şəraitdə məqbul hesab edilən gələcək gəlirlər üzrə təxminlərdən istifadə edir.

Cari vergilər

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlər və tez-tez edilən dəyişikliklərlə səciyyələnir. Bundan əlavə, Qrupun əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatlara qarşı iddialar irəli sürə və Qrupun müəssisələrinə əlavə əhəmiyyətli ola biləcək vergi, cərimə və faiz hesablana bilər.

Vergi və gömrük orqanları yoxlama ilindən əvvəlki üç təqvim ili üzrə vergi öhdəlikləri ilə bağlı yoxlama apara bilərlər. Müəyyən hallarda yoxlamalar daha uzun müddəti əhatə edə bilər.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan il üzrə rəhbərlik hesab edir ki, Qrup müvafiq qanunvericiliyi düzgün şərh edir və Qrupun vergi, valyuta və gömrük mövqelərinin müdafiə edilməsi mümkün olacaqdır.

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Bərpa edilə bilməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı əlamətlərin olub-olmamasını müəyyən edir. Qudvil və digər qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və digər vaxtlarda dəyərsizləşmə göstəriciləri olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır. Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair əlamətlərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

4. Mühüm mühasibat uçotu ehtimal və mühakimələri (davamı)

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)

Qrupun fəaliyyətinin xarakterini nəzərə alaraq, potensial alıcılar ilə danışıqlar aparılmayana qədər aktivin ədalətli dəyəri haqqında məlumat əldə etmək adətən çətindir. Müvafiq olaraq, başqa cür qeyd olunmadığı halda, aşağıda göstərilən dəyərsizləşmə üzrə xərclərin müəyyən edilməsində istifadə edilən bərpa edilə bilən dəyər istifadə dəyəridir.

İstifadə dəyəri hesablanarkən rəhbərlik aktivlər və yaxud pul vəsaitlərini yaradan vahidlər üzrə gələcək pul vəsaitlərinin hərəkətini təxmin edir və onların cari dəyərini hesablamaq üçün uyğun diskont dərəcəsini seçir.

Qrup bir PVYV hesab olunmuşdur və dəyərsizləşmə bütün Qrup səviyyəsində müəyyən edilmişdir. PVYV-nin dəyəri vergidən əvvəl əsasla 11.13% (2018-ci il: 14.2%) dərəcə ilə gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılması yolu ilə hesablanmışdır və 538,689 AZN (2018-ci il: 492,876 AZN) məbləğində dəyərsizləşmə xərci müəyyən əsas vəsaitlərin balans dəyərinin (bu aktivlərin funksional istifadəsini nəzərə alaraq) silinməsi üçün konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatda tanınmışdır.

Diskont dərəcəsinin hesablanması Qrup ilə bağlı spesifik vəziyyətlərə və əməliyyat seqmentlərinə əsaslanır və kapitalın orta çəkili dəyərindən ("KOÇD") irəli gəlir.

KOÇD hesablanarkən kapitalın dəyəri oxşar qrup məlumatlarından istifadə etməklə təxmin edilir və borcun dəyəri Qrupun ödəməli olduğu faiz hesablanan borc öhdəliklərinə əsaslanır. Xüsusi risklər ayrı-ayrı beta amillərini, bazar riskini və Qrupun həcmini tətbiq etməklə nəzərə alınır. Beta amilləri ictimaiyyətə açıq olan bazar məlumatlarına əsasən hər il qiymətləndirilir. Əgər hesablamada istifadə edilən təxmin edilmiş KOÇD rəhbərliyin təxmin etdiyindən 1 faiz yuxarı və ya aşağı olsaydı, o zaman dəyərsizləşmə zərərinin məcmu məbləği, müvafiq olaraq 136,529 AZN yuxarı və ya 483,846 AZN aşağı (2018-ci il: müvafiq olaraq, 81,837AZN / 108,250AZN) olardı.

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar istehlakçıların debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. İstehlakçıların əhəmiyyətli maliyyə çətinlikləri, müqavilə üzrə tərəflərin müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Əlavə olaraq, kiçik debitor borclarının böyük qismi oxşar qruplara birləşdirilir və məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. 12 aydan artıq dövriyyədə olan debitor borcları ümumilikdə müvafiq dəyərsizləşmə ehtiyatına silinir.

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı qiymətləndirilən debitor borcları üzrə pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

İstifadə olunmamış məzuniyyət üçün ehtiyat

Qrupun istifadə olunmamış məzuniyyətə ehtiyat hesablamaq siyasəti mövcuddur. Bu siyasətə əsasən işçi öz məzuniyyət balansını mütləq istifadə etməlidir. Qrup istifadə olunmamış məzuniyyətə görə işçiyə heç bir ödəniş etmir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

5. Əsas vəsaitlər

Əsas vəsaitlərin balans dəyərində hərəkəti aşağıdakı kimi olmuşdur:

	Torpaq	Binalar və tikililər	Obyektlər	Ötürücü qurğular	Maşın və avadanlıqlar	Nəqliyyat vasitələri	Dəftərxana və ofis avadanlıqları	Tamamlan-mamış tikililər	Cəmi
Maya dəyəri									
01 yanvar 2018-ci il tarixinə	**21,663**	**31,795**	**33,991**	**243,049**	**55,270**	**33,599**	**4,890**	**4,000,112**	**4,424,369**
Əlavələr	–	–	47	–	1,506	979	37	699,306	**701,875**
Əvəzsiz verilmiş aktivlər	–	196	2,299	1,028	203	144	1	(42)	**3,829**
Köçürmələr	–	9,950	2,212	33,219	7,005	58	53	(52,749)	**(252)**
Silinmələr	–	–	(2)	(1)	(5)	–	(4)	(546)	**(558)**
31 dekabr 2018-ci il tarixinə	**21,663**	**41,941**	**38,547**	**277,295**	**63,979**	**34,780**	**4,977**	**4,646,081**	**5,129,263**
Əlavələr	–	–	49	–	3,129	2,017	105	568,232	**573,532**
Əvəzsiz verilmiş aktivlər	–	172	199	675	1,761	276	3	–	**3,086**
Köçürmələr	–	4,709	6,524	83,793	12,244	55	87	(107,809)	**(397)**
Silinmələr	–	–	–	(1)	(1)	(1)	–	(89)	**(92)**
31 dekabr 2019-cu il tarixinə	**21,663**	**46,822**	**45,319**	**361,762**	**81,112**	**37,127**	**5,172**	**5,106,415**	**5,705,392**
Köhnəlmə və dəyərsizləşmə									
01 yanvar 2018-ci il tarixinə	**(15,524)**	**(23,809)**	**(31,844)**	**(221,171)**	**(54,092)**	**(33,464)**	**(4,753)**	**(3,425,724)**	**(3,810,381)**
Köhnəlmə xərci	–	(942)	(709)	(3,656)	(6,218)	(1,137)	(57)	–	**(12,719)**
Dəyərsizləşmə xərci	–	(6,837)	(2,308)	(19,453)	(234)	–	(13)	(464,017)	**(492,862)**
31 dekabr 2018-ci il tarixinə	**(15,524)**	**(31,588)**	**(34,861)**	**(244,280)**	**(60,544)**	**(34,601)**	**(4,823)**	**(3,889,741)**	**(4,315,962)**
Köhnəlmə xərci	–	(724)	(546)	(5,946)	(14,237)	(2,233)	(85)	–	**(23,771)**
Dəyərsizləşmə xərci	–	(5,876)	(3,236)	(45,957)	(1,054)	(6)	(21)	(482,407)	**(538,557)**
31 dekabr 2019-cu il tarixinə	**(15,524)**	**(38,188)**	**(38,643)**	**(296,183)**	**(75,835)**	**(36,840)**	**(4,929)**	**(4,372,148)**	**(4,878,290)**
Xalis balans dəyəri									
31 dekabr 2018-ci il tarixinə	**6,139**	**10,353**	**3,686**	**33,015**	**3,435**	**179**	**154**	**756,340**	**813,301**
31 dekabr 2019-cu il tarixinə	**6,139**	**8,634**	**6,676**	**65,579**	**5,277**	**287**	**243**	**734,267**	**827,102**

2019-cu il ərzində tamamlanmamış tikililərdən 397 AZN dəyərində qeyri-maddi aktiv istismara verilmişdir (2018-ci il: 252 AZN).

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

5. Əsas vəsaitlər (davamı)

Əvəzsiz verilmiş aktivlər

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan illər ərzində Qrupa müxtəlif dövlət və kommersiya təşkilatları tərəfindən müəyyən aktivlər (ötürücü borular və digər infrastrukturlar, nəqliyyat vasitələri və s.) əvəzsiz olaraq verilmişdir. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə əvəzsiz verilmiş aktivlərin ədalətli dəyərinin müəyyən edilməsinə Qrup müstəqil qiymətləndiricini cəlb etmişdir. Əvəzsiz verilmiş aktivlərin ədalətli dəyəri 3,086 AZN məbləğində (2018-ci il: 3,829 AZN) müəyyən edilmiş və bunlar dövlət təşkilatlarının 2,810 AZN (2018-ci il: 3,735 AZN) və kommersiya təşkilatlarının 276 AZN (2018-ci il: 94 AZN) təqdim etdiyi aktivlərdən ibarət olmuşdur. Dövlət təşkilatlarından alınmış aktivlər konsolidasiya edilmiş maliyyə hesabatlarında Dövlət investisiyaları kimi tanınmışdır (12-ci Qeydə bax).

Avans ödənişləri

Tamamlanmamış tikintiyə hələ həyata keçirilməmiş tikinti əməliyyatları və xidmətləri üçün avans ödənişləri daxildir. Bu avans ödənişlərinin xalis məbləğləri 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə, müvafiq olaraq 23,893 AZN və 32,420 AZN olmuşdur.

Borclar üzrə məsrəflərin kapitallaşdırılması

2005-ci ildən başlayaraq Qrup Bakıda və Azərbaycan Respublikasının digər regionlarında yeni su kəmərləri və rezervuarlar, həmçinin tullantıların idarə edilməsi və kanalizasiya sistemləri ilə bağlı bir neçə tikinti layihəsinə başlamışdır. Layihələr dövlət investisiyaları və beynəlxalq maliyyə təşkilatlarından kreditlər vasitəsilə maliyyələşdirilmişdir. 2019-cu il ərzində Qrup tərəfindən tikilməkdə olan obyektlər üzrə kapitallaşdırılmış borclar üzrə məsrəflərin cəmi məbləği 2,583 AZN (2018-ci il: 2,343 AZN) olmuşdur.

6. Aktivdən istifadə hüququ

Aktivdən istifadə hüququnun balans dəyərində hərəkəti aşağıdakı kimi olmuşdur:

	Ofis sahələri	Cəmi
01 yanvar 2019-cu il tarixinə ilkin dəyər	**492**	**492**
Əlavələr	432	432
İl üzrə köhnəlmə	(178)	(178)
31 dekabr 2019-cu il tarixinə qalıq dəyər	**746**	**746**

7. Vergilər üzrə debitor borcu

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə vergilər üzrə debitor borcları əsasən ilin sonuna ödənilməmiş və beləliklə də vergi haqqında bəyannamələrdə əvəzləşdirilməmiş alışlara və satıcının müvafiq xidmətləri göstərdikdən sonra əvəzləşdirilə bilən tikinti işləri üzrə avans ödənişlərinə aid 20,359 AZN ƏDV (31 dekabr 2018-ci il: 23,105 AZN) üzrə debitor borcundan ibarətdir.

Vergilər üzrə debitor borcu gələcək vergi öhdəlikləri ilə əvəzləşdirmə vasitəsilə və ya vergi orqanları tərəfindən birbaşa ödənilmiş pul vəsaitləri kimi bərpa olunur.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

8. Mal-material ehtiyatları

Mal-material ehtiyatları aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-ci il	31 dekabr 2018-ci il
Materiallar	5,772	15,269
Mallar	4,700	8,312
Satış üçün mallar	2,910	3,175
Ehtiyat hissələri	1,215	808
Xammal	858	644
Yanacaq və sürtkü maddələri	48	24
Cəmi mal-material ehtiyatları	**15,503**	**28,232**

9. Ticarət və digər debitor borcları

Ticarət və digər debitor borcları aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-ci il	31 dekabr 2018-ci il
Suyun satışından debitor borcları	85,317	77,876
Çıxılsın: dəyərsizləşmə üzrə ehtiyat	(66,943)	(62,561)
Cəmi ticarət debitor borcları	**18,374**	**15,315**
Digər debitor borcları	5,670	1,004
Cəmi ticarət və digər debitor borcları	**24,044**	**16,319**

31 dekabr 2019-cu il tarixinə ticarət debitor borcları əsasən, müvafiq olaraq 49,540 AZN və 35,777 AZN (31 dekabr 2018-ci il tarixinə, müvafiq olaraq, 43,175 AZN və 34,701 AZN) məbləğlərində qeyri-əhali və əhaliyə verilən suyun satışı üzrə debitor borclarından ibarət olmuşdur. Suyun satışları üzrə ümumi kredit şərtlərinə billinq tarixindən sonra 30 gün ərzində ödəniş etmə tələbi daxildir. Suyun satış tarifləri dövlət qanunvericiliyinə uyğundur və Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən nizamlanır.

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatda hərəkət aşağıdakı kimi olmuşdur:

	2019-cu il	2018-ci il
01 yanvar tarixinə	**62,561**	**58,063**
İl ərzində ümidsiz borclar kimi silinmiş debitor borcları, bərpa edilmiş məbləği çıxmaqla	–	–
Ehtiyatda xalis dəyişiklik (Qeyd 22)	4,382	4,498
31 dekabr tarixinə	**66,943**	**62,561**

Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş ticarət və digər debitor borclarının müddət üzrə təhlili:

	Cəmi	<30 gün	Vaxtı keçmiş, lakin dəyərsizləş-məmiş	Fərdi və məcmu şəkildə dəyərsizləş-miş
31 dekabr 2018-ci il	**78,880**	16,319	–	62,561
31 dekabr 2019-cu il	**90,987**	24,044	–	66,943

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

10. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudiyyət qoyulmuş pul vəsaitləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
Köçürülməkdə olan pul vəsaitləri	2,269	1,502
Müxbir və hesablaşma hesabları	15,688	32,788
Kassada olan pul vəsaitləri	4	10
Digər pul vəsaitləri	2	2
Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	**17,963**	**34,302**

İlkin valyutada pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
AZN ilə bank qalıqları	4,987	34,177
ABŞ dolları ilə bank qalıqları	12,937	86
Avro ilə bank qalıqları	35	29
Digər valyutada bank qalıqları	–	–
Kassada olan pul vəsaitləri	4	10
Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	**17,963**	**34,302**

Məhdudiyyət qoyulmuş pul vəsaitləri aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2017-ci il**
ƏDV üzrə depozit hesabı	377	71
Dövlət Xəzinədarlığında hesab	–	–
Xüsusi hesablar	2	752
Cəmi məhdudiyyət qoyulmuş pul vəsaitləri	**379**	**823**

Dövlət Xəzinədarlığında hesab Dövlət tərəfindən imzalanmış əmrə əsasən yaradılmışdır və Azərbaycan Respublikasının Dövlət Xəzinədarlığında saxlanılır. Qrupun əsasən özünün tikinti layihələrinin maliyyələşdirilməsi üçün istifadə olunan hesab üzrə birbaşa nəzarəti yoxdur və Dövlət Xəzinədarlığında verilən səlahiyyətli sorğulara əsasən Dövlət tərəfindən maliyyələşdirilir. Dövlət Xəzinədarlığı tərəfindən təsdiq olunmalı müvafiq vəsaitlər birbaşa olaraq təchizatçının hesabına köçürülür. Qrup bu ayırmaları Qrupun kapitalı daxilində Dövlət investisiyaları kimi uçota alır.

Bundan əlavə, Dövlət müvafiq kredit razılaşmalarının şərtlərinə uyğun olaraq həmin kredit razılaşmaları əsasında təqdim edilən vəsaitlərin istifadəsi məqsədilə beynəlxalq maliyyə təşkilatları üçün məqbul olan yerli kommersiya banklarında Xüsusi hesablar açmışdır. Xüsusi hesablar beynəlxalq maliyyə təşkilatlarının tətbiq etdiyi təlimatlar əsasında yaradılır, idarə edilir, yenidən doldurulur və ləğv edilir. Xüsusi hesablar xarici valyuta ilə saxlanılır va Qrupun onlar üzərində birbaşa nəzarəti yoxdur.

01 yanvar 2008-ci il tarixindən başlayaraq vergi orqanları ƏDV depozit hesablarını təqdim etmişdir və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu yeni vergi qanunvericiliyinə uyğun olmaq üçün Qrup ƏDV üzrə depozit hesabını açmışdır. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

11. Səhm kapitalı

Qrupun səhm kapitalı aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il		31 dekabr 2018-ci il	
	Səhmlərin sayı	**Səhm kapitalı**	**Səhmlərin sayı**	**Səhm kapitalı**
"Azərsu" ASC	20,000,000	400,000	20,000,000	400,000
Törəmə müəssisələr				
"Sutikinti" İdarəsi	100	1,423	100	1,423
"Sukanal" Elmi Tədqiqat Layihələşdirmə İnstitutu	–	131	–	131
"Gəncə Sukanal" TSC	383,640	7,673	383,640	7,673
"Ağdaş Sukanal" TSC	–	–	53,568	1,071
"Göyçay Sukanal" TSC	–	–	53,568	1,071
"Şəki Sukanal" TSC	95,663	1,914	95,663	1,914
"Birləşmiş Sukanal" MMC	4,173,128	83,463	4,063,722	81,274

Qrupun əsas şirkəti "Azərsu" ASC "dövlət müəssisəsi" hüquqi statusuna malikdir. Qrupa hər birinin özünün səhm kapitalı olan 6 ayrı hüquqi müəssisə (2018-ci il: 8) daxildir. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə "Azərsu" ASC nominal dəyəri 0.02 AZN olan 20,000,000 səhmi təsdiqləmiş və buraxmışdır. "Azərsu" ASC-nin bütün törəmə müəssisələrində tam nəzarət hüququ və 100% iştirak payı var.

2019-cu il ərzində Qrup Dövlət tərəfindən qəbul edilmiş başa çatdırılmış investisiya layihələrinin dəyəri əsasında 4,225,307 AZN (2018-ci il: 444,664 AZN) məbləğində əlavə ödənilmiş kapitalı uçota almışdır.

12. Dövlət investisiyaları

Dövlət investisiyaları aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
Qeyri-maliyyə aktivləri formasında investisiyalar	11,125	51,677
Dövlət büdcəsindən maliyyələşdirilmiş investisiyalar	271,822	2,783,876
Dövlət zəmanəti ilə beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilmiş investisiyalar	381,110	1,354,603
Cəmi dövlət investisiyaları	**664,057**	**4,190,156**

Dövlət investisiyalarının qalığı Qrupun müxtəlif əsaslı və digər məsrəflərini maliyyələşdirmək üçün Dövlət Büdcəsinin vəsaitləri, beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilən Dövlət borcları, eləcə də Dövlət tərəfindən Qrupa əvəzsiz olaraq verilmiş qeyri-maliyyə aktivlərindən ibarət olmuşdur.

5-ci Qeyddə göstərildiyi kimi, 2019-cu il ərzində müxtəlif büdcə təşkilatları tərəfindən keçid tarixində əvəzsiz verilmiş qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri 2,810 AZN (2018-ci il: 3,735 AZN) məbləğində olmuşdur.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

13. Faiz hesablanan kreditlər və borc öhdəlikləri

Faiz hesablanan kreditlər və borc öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Beynəlxalq maliyyə institutları tərəfindən maliyyələşdirilən dövlət kreditləri	137,778	152,672
Maliyyə Nazirliyindən dövlət kreditləri	109,259	90,778
Yerli banklardan kreditlər	73	73
Cəmi kreditlər	**247,110**	**243,523**

Qrupun kreditlərinin cari hissəsi aşağıdakı maliyyə institutları tərəfindən təqdim olunmuşdur:

Maliyyə institutu	Müqavilə üzrə faiz dərəcəsi	İlkin valyuta	Bitmə tarixi	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Dünya Bankı (BİA)	0.75%	XBH	may 2030-cu il	7,647	7,683
Dünya Bankı (BİA)	0.75%	XBH	noyabr 2037-ci il	976	980
KfW	0.75%	Avro	iyun 2040-cı il	917	938
KfW	0.75%	Avro	dekabr 2045-ci il	1,693	1,489
Natixis	2.45%	Avro	sentyabr 2030-cu il	4,164	4,259
AİB	2.5%	XBH	noyabr 2036-cı il	3,809	3,384
Azərbaycan Beynəlxalq Bankı	1%	AZN	iyul 2025-ci il	73	73
Cəmi qısamüddətli kreditlər və uzunmüddətli kreditlərin cari hissəsi				**19,279**	**18,806**

Qrupun kreditlərinin uzunmüddətli hissəsi aşağıdakı maliyyə institutları tərəfindən təqdim olunmuşdur.

Maliyyə institutu	Müqavilə üzrə faiz dərəcəsi	İlkin valyuta	Bitmə tarixi	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Dünya Bankı (BİA)	0.75%	XBH	may 2030-cu il	13,887	23,133
Dünya Bankı (BİA)	0.75%	XBH	noyabr 2037-ci il	1,852	2,985
KfW	0.75%	Avro	iyun 2040-cı il	18,043	19,427
KfW	0.75%	Avro	dekabr 2045-ci il	37,697	38,715
Natixis	2.45%	Avro	sentyabr 2030-cu il	35,419	40,268
AİB	2.5%	XBH	noyabr 2036-cı il	11,674	9,411
Maliyyə Nazirliyi	0%	AZN	dekabr 2027-ci il	11,228	11,117
Maliyyə Nazirliyi	0%	ABŞ dollan	dekabr 2027-ci il	27,605	27,330
Maliyyə Nazirliyi	0%	ABŞ dollan	avqust 2028-ci il	16,633	16,458
Maliyyə Nazirliyi	0%	ABŞ dollan	avqust 2030-cu il	17,574	17,400
Maliyyə Nazirliyi	0%	ABŞ dollan	avqust 2031-ci il	18,647	18,473
Maliyyə Nazirliyi	0%	ABŞ dollan	avqust 2027-ci il	17,572	-
Cəmi uzunmüddətli kreditlər				**227,831**	**224,717**

Qrupun kreditlərinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2018-ci il	Nağd hesablaş-malar	Qeyri-nağd hesablaşmalar: Dövlət tərəfindən ödənilən	Qeyri-nağd hesablaşmalar: Məzənnə fərqi və digər	31 dekabr 2019-cu il
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	243,523	–	(18,630)	22,217	247,110
Cəmi kreditlər	**243,523**	–	**(18,630)**	**22,217**	**247,110**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

13. Faiz hesablanan kreditlər və borc öhdəlikləri (davamı)

	31 dekabr 2017-ci il	Nağd hesablaş-malar	Qeyri-nağd hesablaşmalar: Dövlət tərəfindən ödənilən	Qeyri-nağd hesablaşmalar: Məzənnə fərqi və digər	31 dekabr 2018-ci il
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	238,805	–	(19,362)	24,080	243,523
Cəmi kreditlər	**238,805**	–	**(19,362)**	**24,080**	**243,523**

Beynəlxalq maliyyə institutlarından kreditlər

Beynəlxalq maliyyə institutlarından kreditlər Azərbaycan Respublikasının su təchizatı sisteminin inkişafı və təkmilləşdirilməsi ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün birbaşa Dövlətə verilən kreditləri əks etdirir. Dövlət öz növbəsində eyni şərtlərlə Dövlət və Qrup arasında təkrar maliyyələşdirmə haqqında razılaşma vasitəsilə Qrupa bu kreditlər üzrə müvafiq hüquq və öhdəlikləri ötürmüşdür.

Dünya Bankından (BİA) alınmış kreditlər

06 iyul 1995-ci il tarixində Dövlət Dünya Bankı qrupuna daxil olan Beynəlxalq İnkişaf Assosiasiyası ("BİA") ilə 38,800 min XBH (91,036 AZN) məbləğində kredit razılaşması imzalamışdır. 30 iyun 2003-cü il tarixində Dövlət BİA ilə 9,673 min XBH (22,696 AZN) məbləğində daha bir kredit razılaşması imzalamışdır. Bu kredit razılaşmalarına əsasən illik effektiv faiz dərəcəsi 0.75%-dir və bu kreditlər, müvafiq olaraq, 2030-cu və 2037-ci illərədək ödənilməlidir. Kreditlər "Böyük Bakının Su Təchizatı Sisteminin Yenidənqurulması Layihəsi"-nin maliyyələşdirilməsi üçün verilmişdir.

KfW-dan kreditlər

25 sentyabr 2006-cı il tarixində Almaniya hökumətinə məxsus inkişaf bankı Kreditanstalt für Wiederaufbau ("KfW") tərəfindən Dövlətə illik effektiv faiz dərəcələri 0.75% və 0.75% olan və ödəmə müddəti 2040-cı və 2045-ci illərdə başa çatan, müvafiq olaraq, 14,827 min Avro (28,223 AZN) və 26,350 min Avro (50,157 AZN) məbləğlərində iki kredit verilmişdir. Kreditlər "Bələdiyyə infrastrukturu üçün Açıq Proqram" layihəsinin maliyyələşdirilməsi üçün verilmişdir. 31 dekabr 2019-cu il tarixinə kreditlər üzrə cəmi azalmış məbləğ, müvafiq olaraq, 14,827 min Avro (28,223 AZN) və 24,126 min Avro (45,924 AZN) olmuşdur (31 dekabr 2018-ci il: müvafiq olaraq, 14,827 min Avro (28,865 AZN) və 23,228 min Avro (45,220 AZN))).

Natixis-dən kredit

30 sentyabr 2006-cı il tarixində fransız korporativ və investisiya bankı olan Natixis Fransa Respublikası adından Dövlətə illik effektiv faiz dərəcəsi 2.45% olan və ödəmə müddəti 2030-cu ildə başa çatan 35,000 min Avro (66,623 AZN) məbləğində kredit verilmişdir. Kredit "Hövsan tullantılarının idarəedilməsi sisteminin, Zığ nasos stansiyasının rekonstruksiyası" adlı layihənin maliyyələşdirilməsi üçün verilmişdir.

Asiya İnkişaf Bankından kredit

29 noyabr 2005-ci il tarixində Asiya İnkişaf Bankı ("AİB") tərəfindən Dövlətə illik effektiv faiz dərəcəsi 2.5% olan və ödəmə tarixi 2036-cı ildə başa çatan 5,428 min XBH (12,736 AZN) məbləğində kredit verilmişdir. Kredit "Şəhər su təchizatı və kanalizasiya layihəsi" adlı layihənin maliyyələşdirilməsi üçün verilmişdir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən kreditlər

29 noyabr 2016-cı il tarixində Qrup Maliyyə Nazirliyindən 17,382 min ABŞ dolları (29,549 AZN) və 11,943 AZN məbləğlərində iki faizsiz kredit almışdır. Müqavilələrə görə kreditlərin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2024-cü ilin sentyabr ayında başlayaraq 2027-ci ilin dekabr ayında başa çatacaq.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

13. Faiz hesablanan kreditlər və borc öhdəlikləri (davamı)

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən kreditlər (davamı)

07 iyun 2017-ci il tarixində Qrup Maliyyə Nazirliyindən 11,183 min ABŞ dolları (19,011 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2025-ci ilin fevral ayında başlayaraq 2028-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2017-ci ilin sonunda 11,280 min ABŞ dolları (19,176 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2027-ci ilin fevral ayında başlayaraq 2030-cu ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2018-ci ilin sonunda 11,390 min ABŞ dolları (19,363 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2028-ci ilin fevral ayında başlayaraq 2031-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2019-cu ilin sonunda 10,959 min ABŞ dolları (18,630 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2024-cü ilin fevral ayında başlayaraq 2027-ci ilin avqust ayında başa çatacaq.

Azərbaycan Respublikasının Beynəlxalq Bankından kredit

15 iyul 2016-cı il tarixində Qrup Azərbaycan Respublikasının Beynəlxalq Bankı ilə faiz dərəcəsi illik 1% olmaqla 239,720 AZN məbləğində dövlət zəmanəti əsasında kredit razılaşmasını imzalamışdır. 31 dekabr 2016-cı il tarixinə Qrup cari infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün bu kreditin tam məbləğində vəsait yönəltmişdir. 31 dekabr 2019-cu il tarixinə kredit üzrə 73 AZN məbləğində ödənilməmiş yığılmış faiz qalığı mövcuddur.

14. Ehtiyatlar

Ehtiyatlar aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
İstifadə olunmamış məzuniyyət	9,655	7,446
Məhkəmə işləri üzrə ehtiyat	1,302	503
Digər	118	107
Cəmi ehtiyatlar	**11,075**	**8,056**

Məhkəmə işləri üzrə ehtiyat

Məhkəmə işləri üzrə ehtiyat Qrupa qarşı cari tikinti layihələri ilə bağlı yaranmış faktiki və ehtimal olunan iddiaları əks etdirir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

15. Digər vergilər və cərimələr üzrə xalis kreditor borcu

Mənfəət vergisi istisna olmaqla vergilər və cərimələr üzrə xalis kreditor borcu aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
ƏDV	1,118	(534)
İqtisadi və maliyyə cərimələri	(278)	393
Əmlak vergisi	2,597	1,741
Mənbədən tutulan vergi	68	300
Torpaq vergisi	(1,329)	55
Gəlir vergisi	1,091	683
Yol vergisi	–	3
Cəmi digər vergilər və cərimələr üzrə xalis kreditor borcu	**3,267**	**2,641**

İqtisadi və maliyyə cərimələri yerli maliyyə hesabatlarının gec təqdim edilməsi, yerli hesabatlarda nöqsanlar və digər sanksiyalardan ibarətdir.

16. Ticarət və digər kreditor borcları

Ticarət və digər kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Tikinti ilə bağlı kreditor borcları	182,431	280,337
Ticarət kreditor borcları	93,296	92,541
Hesablanmış öhdəliklər	22,195	42,640
Digər kreditor borcları	6,053	1,486
Cəmi maliyyə kreditor borcları	**303,975**	**417,004**
Sosial Müdafiə Fonduna ödəniləcək məbləğlər	1,715	11,994
İşçilərə ödəniləcək məbləğlər	8,029	5,074
Cəmi ticarət və digər kreditor borcları	**313,719**	**434,072**

Qrupun cəmi kreditor borcları tikinti xidmətlərinə görə kreditor borcları və təchizatçılar tərəfindən Qrupa təqdim edilmiş material, nəqliyyat, su təchizatı, enerji və kommunal xidmətlərə görə kreditor borclarından ibarətdir.

17. İcarə öhdəlikləri

İcarə öhdəliklərinin hərəkəti aşağıda əks etdirilir:

Cəmi 01 yanvar 2019-cu il tarixinə diskont edilmiş icarə öhdəlikləri	**479**
Əlavələr	425
Ödənilmiş icarə haqları	(190)
Faiz xərci	54
Cəmi 31 dekabr 2019-cu il tarixinə diskont edilmiş icarə öhdəlikləri	**768**
Qısamüddətli	187
Uzunmüddətli	581
Cəmi 31 dekabr 2019-cu il tarixinə diskont edilmiş icarə öhdəlikləri	**768**
Qısamüddətli	246
Uzunmüddətli	732
Cəmi 31 dekabr 2019-cu il tarixinə diskont edilməmiş icarə öhdəlikləri	**978**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

18. Əlaqəli tərəflərlə qalıqlar və əməliyyatlar

Baş rəhbərliyə ödənişlər

Qrupun baş rəhbərliyinə Qrupun sədri və beş müavini daxildir. Sədr Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir, müavinlər isə Sədr tərəfindən müəyyən edilir. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq Qrup tərəfindən əmək haqqı və mükafatlarla təmin edilir. 2019-cu il ərzində baş rəhbərliyə cəmi ödənişlər 372 AZN (2018-ci il: 362 AZN) təşkil etmişdir.

Əhəmiyyətli əməliyyatlar

Dövlətlə bütün əməliyyatlar 11-ci, 12-ci, 13-cü və 26-cı Qeydlərdə açıqlanır.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya hesablaşmalar üzrə əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə münasibətlər aşağıda göstərilir.

Qrupun əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqları aşağıda əks etdirilir:

		Dövlət və onun nəzarətində olan müəssisələr	
	Qeyd	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Ticarət debitor borclarının ümumi məbləği		38,755	27,388
Ticarət debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar		(24,232)	(19,012)
Digər debitor borcları		376	325
Vergilər üzrə debitor borcu	7	20,359	23,105
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri		253	343
Məhdudiyyət qoyulmuş pul vəsaitləri	10	379	823
Uzunmüddətli borc öhdəlikləri	13	(227,831)	(224,717)
Qısamüddətli borc öhdəlikləri		(19,279)	(18,806)
Qısamüddətli ticarət və digər kreditor borcları		(40,992)	(43,089)
Vergilər üzrə kreditor borcu		(5,516)	(4,941)
Alınmış avanslar		(2,695)	(3,217)
Təxirə salınmış gəlirlər		(122)	(57)

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan il üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakı kimi olmuşdur:

		Dövlət və onun nəzarətində olan müəssisələr	
	Qeyd	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Satışdan gəlirlər		38,149	35,899
Enerji məsrəfləri	22	(47,130)	(47,202)
Təhlükəsizlik xərcləri	22	(4,997)	(3,851)
Su alışı		(38)	(42)
Digər xərclər		(5,911)	(6,416)
Rabitə xərcləri		(151)	(92)

Əlaqəli tərəflərə satışlar və onlardan alışlar aşağıdakı bazar dərəcəsindən aşağı faizlə verilmiş Dövlət kreditlərindən başqa kommersiya cəhətdən bir-birindən asılı olmayan tərəflər arasındakı əməliyyatlarda üstünlük təşkil edən şərtlərə uyğun şərtlərlə aparılır. İlin sonuna olan qalıqlar zəmanətsizdir və borc öhdəlikləri istisna olmaqla faizsizdir. Əlaqəli tərəflər üzrə debitor və ya kreditor borclarına dair heç bir zəmanət təqdim olunmamış və ya alınmamışdır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

19. Maliyyə risklərinin idarə edilməsi

Maliyyə riski amilləri

Fəaliyyətin adi gedişində Qrup kredit, likvidlik və bazar risklərinə məruz qalır. Bazar riskləri alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranır. Bazar qiymətlərindəki bu cür dəyişikliklər, dərəcəsindən asılı olaraq, Qrupun maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurların olmamasına baxmayaraq, Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

Valyuta riski

Qrup fəaliyyətin adi gedişində müxtəlif xarici valyutalar üzrə məzənnə riskinə məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə, uçota alınmış aktiv və öhdəliklərdən yaranır.

Bütün digər dəyişənlərin sabit qalması şərti ilə, Qrupun vergidən sonra mənfəətinə ABŞ dolları, Avro və XBH üzrə məzənnələrdəki mümkün dəyişikliklərin təsiri üzrə təhlil aşağıdakı cədvəldə göstərilir və Qrupun kapital balansına əhəmiyyətli təsiri mövcud deyildir:

31 dekabr 2019-cu il	**Məzənnənin dəyişməsi**	**Vergidən sonrakı mənfəətə təsir**
ABŞ dolları / AZN	10%/(-10%)	(7,132)/7,132
Avro/AZN	10%/(-10%)	(10,874)/10,874
XBH/AZN	1%/(-1%)	(319)/319

31 dekabr 2018-ci il	**Məzənnənin dəyişməsi**	**Vergidən sonrakı mənfəətə təsir**
ABŞ dolları / AZN	10%/(-10%)	(16,831)/16,831
Avro/AZN	10%/(-10%)	(15,755)/15,755
XBH/AZN	1%/(-1%)	(476)/476

Qrupun bütün digər valyutalar üzrə məzənnə dəyişikliklərinə məruz qalması riski əhəmiyyətli deyil.

Kredit riski və kredit risklərinin konsentrasiyası

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ticarət və digər debitor borclarıdır.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	17,959	34,292
Ticarət və digər debitor borcları	24,044	16,319
Cəmi maksimal kredit riski	**42,003**	**50,611**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

19. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Kredit riski və kredit risklərinin konsentrasiyası (davamı)

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrup hesablarını saxladığı bankların statusuna daim nəzarət edir. Qrup özəl sektorda fəaliyyət göstərən müştərilər və əlaqəli olmayan digər üçüncü şəxslərlə ticarət balansından yaranan kredit riskini onların ödəmə qabiliyyətini daimi nəzarət altında saxlamaqla azaldır. Dəyərsizləşmə üzrə tələb iri müştərilər üçün hər hesabat tarixində fərdi əsasla təhlil edilir. Əlavə olaraq, bir çox xırda debitor borcları oxşar qruplara qruplaşdırılıb məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. Hesablama faktiki hesablanmış ilkin məlumatlara əsaslanır. Hesabat tarixində kredit riskinə məruz qalmanın maksimal dərəcəsi maliyyə aktivlərinin hər sinfinin balans dəyəridir. Qrup təminat kimi girov saxlamır. Qrupun rəhbərliyi hesab edir ki, gələcəkdə qaytarılması gözlənilməyən bütün debitor borcları üçün konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında dəyərsizləşmə üzrə ehtiyatlar hesablandığına görə Qrup mövcud debitorlarla bağlı yüksək kredit riskinə məruz qalmır.

Likvidlik riski

Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm adi, həm də qeyri-adi şəraitdə, qəbul ediməyən zərər çəkməyərək və ya Qrupun nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlamalı, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət etməlidir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. 2-ci Qeyddə göstərildiyi kimi, Qrup fəaliyyətini davam etdirmək və cari investisiya layihələrini başa çatdırmaq üçün Dövlətdən əhəmiyyətli miqdarda maliyyə vəsaitlərini alma imkanından asılı olaraq qalır.

Qrupun bütün maliyyə öhdəlikləri qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabat tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir.

Maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

31 dekabr 2019-cu il	**3 aydan az**	**3-12 ay**	**1-5 il**	**5 ildən çox**	**Cəmi**
Ticarət və digər maliyyə kreditor borcları	273,288	–	30,687	–	**303,975**
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	792	20,365	52,569	188,170	**261,896**
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**274,080**	**20,365**	**83,256**	**188,170**	**565,871**

31 dekabr 2018-ci il	**3 aydan az**	**3-12 ay**	**1-5 il**	**5 ildən çox**	**Cəmi**
Ticarət və digər maliyyə kreditor borcları	355,586	–	61,418	–	**417,004**
Faiz hesablanan kreditlər və borc öhdəlikləri	834	17,641	61,692	177,628	**257,795**
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**356,420**	**17,641**	**123,110**	**177,628**	**674,799**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

19. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində Qrupun əsas məqsədi düzgün investisiya qərarları qəbul etməklə biznes əməliyyatlarının maliyyələşdirilməsi və davam etdirilməsi üçün güclü kapital bazasının təmin edilməsi və dövlətin, investorun və kreditorun işgüzar fəaliyyətinin dəstəklənməsindən ibarətdir.

Qrup 100% Azərbaycan Respublikasının hökumətinə məxsusdur və tikinti layihələrinin həyata keçirilməsi üçün vaxtaşırı olaraq Dövlət investisiyaları şəklində vəsaitlər alır. Kapitala qoyuluşların və əlavələrin dövlətin qərarlarından asılı olduğunu və kapitalın səviyyəsinə dair tələblərin və məhdudiyyətlərin qoyulmadığını nəzərə alsaq Qrup tərəfindən kapitalın idarə edilməsi ilə bağlı xüsusi qaydalar işlənib hazırlanmamışdır.

Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri alətin könüllü tərəflər arasında məcburi və ya ləğv etmə satışı olmayan cari əməliyyatlar zamanı mübadilə edilə bildiyi məbləğlə müəyyən edilir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər varsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək vacibdir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.
Aşağıdakı cədvəldə Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmiş maliyyə alətləri balans dəyərləri və ədalətli dəyər sinifləri üzrə müqayisə edilir:

31 dekabr 2019-cu il	**Balans dəyəri**	**Ədalətli dəyər**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	17,959	17,959
Ticarət və digər maliyyə debitor borcları	24,044	24,044
Uzunmüddətli ticarət və digər maliyyə kreditor borcları	(30,687)	(30,687)
Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları	(283,032)	(283,032)
Uzunmüddətli bank kreditləri	(227,831)	(227,831)
Qısamüddətli bank kreditləri	(19,279)	(19,279)

31 dekabr 2018-ci il	**Balans dəyəri**	**Ədalətli dəyər**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	34,292	34,292
Ticarət və digər maliyyə debitor borcları	16,319	16,319
Uzunmüddətli ticarət və digər maliyyə kreditor borcları	(61,418)	(61,418)
Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları	(372,654)	(372,654)
Uzunmüddətli bank kreditləri	(224,717)	(224,717)
Qısamüddətli bank kreditləri	(18,806)	(18,806)

Ədalətli dəyərlər qiymətləndirilərkən, aşağıdakı metod və fərziyyələrdən istifadə edilmişdir:

i. Qısamüddətli maliyyə aktivləri və öhdəlikləri, əsas etibarı ilə bu alətlərin qısamüddətli olduğuna görə, balans dəyərlərini təxmin edir.

ii. Uzunmüddətli borc öhdəlikləri Qrup tərəfindən faiz dərəcələri, ölkə üzrə xüsusi risk amilləri, müştərinin fərdi krediti ödəmə qabiliyyəti və maliyyələşdirilən layihənin risk xususiyyətləri kimi parametrlərə əsaslanaraq qiymətləndirilir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

19. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2019-cu il tarixinə ədalətli dəyərlə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərləri verilmişdir və hər ədalətli dəyər ölçməsinin aşağıda təsnif olunduğu ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edilir:

			Ədalətli dəyərin ölçülməsi			
	Maliyyə alətlərinin təsnifatı	**Qiymət-ləndirmə tarixi**	**Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (Səviyyə 1)**	**Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)**	**Əhəmiyyətli müşahidə edilməyən giriş məlu-matları (Səviyyə 3)**	**Cəmi**
Ədalətli dəyəri açıqlanan aktivlər						
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	17,963	–	–	**17,963**
Ticarət və digər debitor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	–	–	24,044	**24,044**
Ədalətli dəyəri açıqlanan öhdəliklər						
Uzunmüddətli ticarət və digər maliyyə kreditor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	–	–	(30,687)	**(30,687)**
Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	–	–	(283,032)	**(283,032)**
Uzunmüddətli bank kreditləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	–	–	(227,831)	**(227,831)**
Qısamüddətli bank kreditləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2019-cu il	–	–	(19,279)	**(19,279)**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

19. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2018-ci il tarixinə ədalətli dəyərlə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərləri verilmişdir və hər ədalətli dəyər ölçməsinin aşağıda təsnif olunduğu ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edilir:

			Ədalətli dəyərin ölçülməsi			
	Maliyyə alətlərinin təsnifatı	**Qiymət-ləndirmə tarixi**	**Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (Səviyyə 1)**	**Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)**	**Əhəmiyyətli müşahidə edilməyən giriş mə-lumatları (Səviyyə 3)**	**Cəmi**
Ədalətli dəyəri açıqlanan aktivlər						
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	34,302	–	–	**34,302**
Ticarət və digər debitor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	–	–	16,319	**16,319**
Ədalətli dəyəri açıqlanan öhdəliklər						
Uzunmüddətli ticarət və digər maliyyə kreditor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	–	–	(61,418)	**(61,418)**
Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	–	–	(372,654)	**(372,654)**
Uzunmüddətli bank kreditləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	–	–	(224,717)	**(224,717)**
Qısamüddətli bank kreditləri	Amortizasiya olunmuş maya dəyər	31 dekabr 2018-ci il	–	–	(18,806)	**(18,806)**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

20. Satışdan gəlirlər və təxirə salınmış gəlirlər

Satışdan gəlirlər aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il tarixində başa çatan il	**31 dekabr 2018-ci il tarixində başa çatan il**
Su satışı	128,643	115,549
Kanalizasiya xidmətləri	57,251	54,397
Digər satışlardan gəlirlər	7,142	6,769
Cəmi satışlardan gəlirlər	**193,036**	**176,715**

Digər satışlardan gəlirlər əsasən su sayğaclarının satışından və elmi tədqiqat və layihələndirmə işlərindən ibarətdir.

Təxirə salınmış gəlirlər 31 dekabr 2019-cu il tarixinə 8,180 AZN (31 dekabr 2018-ci il: 7,891 AZN) məbləğində su təchizatı və kanalizasiya xidmətləri üçün müştərilərdən alınmış avanslardan ibarət olmuşdur. Bundan əlavə, bu təxirə salınmış gəlirlər qalığı müştərilərə verilmiş texniki şərtlərə əsasən əldə edilmiş avanslardan ibarətdir və 31 dekabr 2019-cu il tarixinə 1,475 AZN (31 dekabr 2018-ci il: 1,213 AZN) məbləğində olmuşdur.

21. Digər gəlir

Digər gəlir aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il tarixində başa çatan il	**31 dekabr 2018-ci il tarixində başa çatan il**
Kreditor borclarının silinməsindən yaranan gəlir	–	1,571
Avanslar üzrə yaradılmış ehtiyatın azaldılmasından gəlir	–	262
Məhkəmə işləri üzrə ehtiyatların geri qaytarılmasından gəlir	35	3,160
Vergi borclarının silinməsindən yaranan gəlir	33	891
DSMF borclarının silinməsindən yaranan gəlir	–	16,554
Digər	12,004	3,862
Cəmi digər gəlir	**12,072**	**26,300**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

22. Xərclər

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan illər üzrə satışların maya dəyəri, inzibati xərclər, satış və paylama xərcləri və digər əməliyyat xərcləri aşağıdakılardan ibarət olmuşdur:

2019-cu il	Satışların maya dəyəri	İnzibati xərclər	Satış və paylama xərcləri	Digər əməliyyat xərcləri	Cəmi
Əsas vəsaitlərin dəyərsizləşməsi	–	–	–	538,557	**538,557**
Qeyri-maddi aktivlərin dəyərsizləşməsi	–	–	–	132	**132**
Əmək haqqı, maaş və sosial müdafiə xərcləri	34,976	10,308	58,698	–	**103,982**
Əsas vəsaitlərin köhnəlməsi	9,900	255	13,616		**23,771**
Qeyri-maddi aktivlərin amortizasiyası	15	54	–	–	**69**
Enerji xərcləri	37,460	721	8,949	–	**47,130**
Təlim, təhsil və biznes inkişafı xərcləri	–	12,598	–	–	**12,598**
İstifadə edilən xammal və materiallar	8,314	196	1,737	–	**10,247**
Mənfəət vergisindən başqa vergilər	5,088	286	2,782	–	**8,156**
Təmir və texniki xidmət xərcləri	2,595	109	4,613	–	**7,317**
Təhlükəsizlik xərcləri	4,435	309	253	–	**4,997**
Ticarət və digər debitor borclarının dəyərsizləşməsi	–	–	4,382	–	**4,382**
Digər ehtiyatlarda və öhdəliklərdə dəyişikliklər	1,332	1,193	529	–	**3,054**
Yanacaq xərcləri	2,224	–	658	–	**2,882**
Bank və yığım xərcləri	51	2,338	484	–	**2,873**
İqtisadi sanksiyalar və digər cərimələr	55	732	1,808	–	**2,595**
İşgüzar səfərlərlə bağlı xərclər	673	349	266	–	**1,288**
İcarə xərcləri	198	2	584	–	**784**
Sığorta xərcləri	158	305	315	–	**778**
Kommunikasiya xərcləri	39	235	169	–	**443**
Aktivdən istifadə hüquq üzrə köhnəlmə	–	–	178	–	**178**
Əsas vəsaitlərin silinməsindən zərər	–	91	1	–	**92**
Qeyri-maddi aktivlərin silinməsindən zərər	–	7	–	–	**7**
Digər xərclər	859	1,264	3,093	–	**5,216**
	108,372	**31,352**	**103,115**	**538,689**	**781,528**

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

22. Xərclər (davamı)

2018-ci il	Satışların maya dəyəri	İnzibati xərclər	Satış və paylama xərcləri	Digər əməliyyat xərcləri	Cəmi
Əsas vəsaitlərin dəyərsizləşməsi	–	–	–	492,862	**492,862**
Qeyri-maddi aktivlərin dəyərsizləşməsi	–	–	–	14	**14**
Əmək haqqı, maaş və sosial müdafiə xərcləri	29,368	8,546	44,821	–	**82,735**
Əsas vəsaitlərin köhnəlməsi	6,620	245	5,854	–	**12,719**
Qeyri-maddi aktivlərin amortizasiyası	13	28	–	–	**41**
Enerji xərcləri	37,491	820	8,891	–	**47,202**
İstifadə edilən xammal və materiallar	5,596	134	1,551	–	**7,281**
-Təmir və texniki xidmət xərcləri	1,444	114	2,151	–	**3,709**
Təlim, təhsil və biznes inkişafı xərcləri	–	3,425	–	–	**3,425**
İqtisadi sanksiyalar və digər cərimələr	384	527	2,385	–	**3,296**
Təhlükəsizlik xərcləri	3,658	180	13	–	**3,851**
Yanacaq xərcləri	2,136	7	664	–	**2,807**
Mənfəət vergisindən başqa vergilər	4,709	414	2,327	–	**7,450**
Digər ehtiyatlarda və öhdəliklərdə dəyişikliklər	–	1,079	37	–	**1,116**
Ticarət və digər debitor borclarının dəyərsizləşməsi	–	–	4,498	–	**4,498**
Bank və yığım xərcləri	59	2,134	325	–	**2,518**
İşgüzar səfərlərlə bağlı xərclər	534	307	301	–	**1,142**
İcarə xərcləri	202	–	739	–	**941**
Kommunikasiya xərcləri	36	244	316	–	**596**
Sığorta xərcləri	271	9	64	–	**344**
Əsas vəsaitlərin silinməsindən zərər	85	423	50	–	**558**
Digər xərclər	331	4,353	1,115	–	**5,799**
	92,937	**22,989**	**76,102**	**492,876**	**684,904**

2019-cu il ərzində Qrup Azərbaycan manatının xarici valyutalara qarşı məzənnəsinin dəyişməsindən 13,325 AZN məbləğində zərər (2018-ci il: 5,007 AZN məbləğində məzənnə fərqindən gəlir) olmuşdur.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

23. Mənfəət vergisi

Mənfəət vergisi xərci aşağıdakılardan ibarət olmuşdur:

	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Cari mənfəət vergisi xərci	(249)	(276)
Təxirə salınmış vergidə dəyişiklik	273	(793)
İl üzrə mənfəət vergisi gəliri/(xərci)	**24**	**(1,069)**

MHBS və qüvvədə olan yerli vergi qanunvericiliyi arasındakı fərqlər maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün aktivlərin və öhdəliklərin balans dəyəri və onların vergi əsasları arasındakı müvəqqəti fərqlərə səbəb olmuşdur:

	31 dekabr 2017-ci il	Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda	31 dekabr 2018-ci il	Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda	31 dekabr 2019-cu il
Çıxılan müvəqqəti fərqlər					
Əsas vəsaitlər	693	(792)	(99)	273	174
Mal material ehtiyatları	18	(1)	17	4	21
Ticarət və digər debitor borcları	–	–	–	(2)	(2)
Ticarət və digər kreditor borcları	(3)	1	(2)	(3)	(5)
Ehtiyatlar	5	(1)	4	1	5
Təxirə salınmış mənfəət vergisi (öhdəliyi)/aktivi	**713**	**(793)**	**(80)**	**273**	**193**

31 dekabr 2019-cu il tarixində gələcək dövrə köçürülmüş zərərlər və digər müvəqqəti fərqlərdən uçota alınmamış təxirə salınmış vergi aktivinin ümumi qalığı, 1,240,704 AZN (31 dekabr 2018-ci il üzrə: 1,161,719 AZN) təşkil etmişdir.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan illər üzrə vergi xərcləri və Qrupun yerli vergi dərəcəsinə vurulmuş uçot mənfəətinin/(xərcinin) nəticələri arasında üzləşdirmə aşağıda təqdim edilir:

	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Vergidən əvvəl zərər	**(592,512)**	**(479,132)**
20 faiz vergi dərəcəsi ilə nəzəri vergi xərci	**118,502**	**95,826**
Çıxılmayan xərclər	(26)	(138)
Uçota alınmamış təxirə salınmış vergi aktivində artım	(118,452)	(96,757)
İl üzrə mənfəət vergisi gəliri/(xərci)	**24**	**(1,069)**

Qrup konsolidasiya edilmiş vergi bəyannaməsini təqdim etmir. Qrupun cari strukturu baxımından Qrupun ayrı-ayrı müəssisələrinin vergi zərərləri və cari vergi aktivləri Qrupun digər müəssisələrinin cari vergi öhdəlikləri və vergiyə cəlb olunan mənfəəti ilə əvəzləşdirilə bilməz. Bu səbəbdən təxirə salınmış vergi aktivi və öhdəlikləri yalnız vergiyə cəlb olunan eyni müəssisəyə aid olduqda qarşılıqlı şəkildə əvəzləşdirilir.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

23. Mənfəət vergisi (davamı)

Qrupun bir neçə törəmə müəssisəsinin vergi zərərləri var. Azərbaycan Respublikasının vergi qanunverciliyinə uyğun olaraq onlar gələcək beş illik dövrə keçirilə bilər. Lakin, bu zərərlər zərər tarixçəsi olan törəmə müəssisələrə aid olduğundan təxirə salınmış vergi aktivləri tanınmamışdır, çünki bu zərərlər Qrup daxilində vergi tutulan mənfəətin əvəzləşdirilməsi üçün istifadə oluna bilməzlər. Qrup qiymətləndirməni apararaq belə nəticəyə gəldi ki, zərərlə çalışan törəmə müəssisələrinin qalıqları üzrə təxirə salınmış vergi aktivlərinin yaxın gələcəkdə bərpa olunması mümkün deyil. Bu səbəbdən Qrup bu müəssisələr üzrə təxirə salınmış vergi aktivi üzrə tam ehtiyatı tanımışdır.

24. Əhəmiyyətli nağdsız investisiya və maliyyələşdirmə fəaliyyəti

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin istifadəsini tələb etməyən və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatdan çıxarılmış investisiya və maliyyələşdirmə əməliyyatları aşağıdakılardan ibarət olmuşdur:

	2019-cu il	2018-ci il
Dövlət tərəfindən maliyyələşdirilmiş tikinti işləri	438,389	459,125
Maliyyə Nazirliyi tərəfindən Qrupun kreditlərinin ödənilməsi	18,630	19,362
Qrupa Dövlət tərəfindən əvəzsiz verilmiş əsas vəsaitlər (5-ci Qeyd)	2,810	3,735

10-cu Qeyddə göstərildiyi kimi Qrupun Dövlət Xəzinədarlığındakı hesabı Qrupun tikinti fəaliyyətinin Dövlət tərəfindən maliyyələşdirilməsi ilə məhdudlaşır. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan illər ərzində Qrupun tikinti fəaliyyətinin ödənilməsi üçün Dövlət tərəfindən ayrılmış vəsaitlərin cəmi məbləği, müvafiq olaraq 438,389 AZN və 459,125 AZN təşkil etmişdir.

25. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

Əməliyyat mühiti

Qrup fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir və nəticədə, Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə aslıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başladı və neft sahəsindəki gəlirlərin, dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələndi.

Qlobal neft qiymətlərinin aşağı səviyyədə olması, həmçinin manatın 2015-ci ildəki ikili devalvasiyası iş mühitindəki qeyri-müəyyənliyin səviyyəsini son illərdə daha da artırdı.

2017-ci ilin 12 yanvar tarixindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə sisteminə sərbəst keçid imkanı üçün kommersiya banklarına tətbiq etdiyi 4% məzənnə dəhlizini ləğv etdi, 2018-ci il ərzində isə manatın dəyəri sabitləşməyə başladı.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

25. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

Əməliyyat mühiti (davamı)

2019-cu ildə AMB-nin İdarə Heyəti faiz dəhlizinin parametrlərini 8 dəfə nəzərdən keçirdi. Ölkədə uçot dərəcəsi tədricən 9,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddi 11,75%-dən 9,25%-ə, aşağı həddi isə 7,75%-dən 5,75%-ə endirildi.

Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilk dəfə 40 milyard dolları keçdi. Bu, Azərbaycanın valyuta ehtiyatlarının da məbləğinə təsir etdi və 4 illik fasilədən sonra ölkə yenidən 50 milyard dollardan artıq ehtiyata malik oldu.

Bu il həmçinin Prezidentin imzaladığı "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmana əsasən xarici valyutada əsas məbləği 10,000 ABŞ dollarına qədər olan əsas kredit borclarının devalvasiya hesabına artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənildi. Bu proses təxminən 900 min insanı əhatə etdi. Onlardan 600 mininə kompensasiya, 300 mininə isə illik cəmi 1%-lə, 5 il müddətinə milli valyutada yeni kredit müqaviləsi bağlamaq təklif olundu. İl ərzində vətəndaşlara 645 milyon manat kompensasiya ödənildi, 123 min borcalanın 242 milyon manat məbləğində kreditləri güzəştli şərtlərlə restrukturizasiya edildi, 205 milyon manat faiz və dəbbə pulu silindi, 42 min borcalanın kreditləri tam bağlandı.

2019-cu ildə Azərbaycanda minimum əmək haqqı və pensiya ilk dəfə yaşayış minimumunu üstələdi. Belə ki, Prezidentin imzaladığı sərəncamlara əsasən, maaşların aşağı həddi iki mərhələdə 92 %, pensiyaların aşağı həddi isə yenə də iki mərhələdə 72 % artırıldı. Əmək haqqı artımları dövlət sektorunda 1 milyon nəfəri, özəl sektorda isə 350 min nəfəri əhatə etdi. Pensiya artımları isə 750 min nəfərə şamil edildi.

2019-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 34-cü yeri tutdu və dünyanın 20 ən islahatçı ölkəsindən biri oldu. Aparılan islahatların ölkə iqtisadiyyatına müsbət təsirləri gözlənilməkdədir.

Konsolidə edilmiş maliyyə hesabatları Rəhbərliyin Azərbaycan biznes mühitinin Qrupun əməliyyatlarına və maliyyə vəziyyətinə təsirini qiymətləndirməsini əks etdirir. Rəhbərlik makro-iqtisadi amillərin gözlənilən dəyişikliklərinin Qrupun əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil və mövcud şəraitdə Qrupun fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

Məhkəmə işləri

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi öz təxminlərinə və daxili peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı müvafiq olaraq konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaqdır və Qrupun potensial vergi öhdəlikləri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır.

(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)

25. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin mühafizəsi haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı öhdəliklər mövcud deyil.

26. Hesabat tarixindən sonra baş vermiş hadisələr

31 dekabr 2019-cu il tarixindən sonra baş vermiş əhəmiyyətli hadisələr aşağıdakı kimi olmuşdur:

Azərbaycan Respublikasının Prezidentinin 30 dekabr 2019-cu il tarixli 1752 saylı Sərəncamına əsasən əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması,su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, tikintisi, sayğacların quraşdırılması və ekoloji vəziyyətin yaxşılaşdırılması tədbirləri üçün 2019-cu ilin dövlət büdcəsində investisiya məqsədilə 212,676 AZN məbləğində vəsait nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 sentyabr 2019-cu il tarixli 0303055094908 saylı Sərəncamına əsasən Qrupun əməliyyat xərclərini maliyyələşdirmək məqsədilə 2020-ci il Dövlət Büdcəsindən 38,000AZN məbləğində vəsait ayrılması qərarı verilmişdir.

11 mart 2020-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatı, bütün dünya iqtisadiyyatına, eləcə də Qrupun gəlirlərinə əhəmiyyətli dərəcədə təsir edən qlobal koronavirus (COVID-19) pandemiyasını elan etdi. Ölkədə infeksiyanın yayılmasının qarşısını almaq üçün, COVID-19 pandemiyası ilə mübarizədə müxtəlif ölkələrin təcrübəsi nəzərə alınaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən 24 mart 2020-ci il tarixindən 01 avqust 2020-ci il tarixinə qədər xüsusi karantin rejimi elan edildi. Dövlət əhəmiyyətli və həyat təminatlı obyektlər, eləcə də insanların həyat və fəaliyyəti üçün zəruri olan iş və xidmət sahələrindən başqa digər istiqamətlər üzrə müəssisələrin fəaliyyəti qeyd olunan tarixə qədər dayandırıldı.

31 mart 2020-ci il tarixində "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" AR Prezidentinin Sərəncamına əsasən, sahibkarlara dəyə biləcək itkilərin minimuma endirilməsi, o cümlədən sahibkarlığa dövlət dəstəyinin göstərilməsi üçün təkliflər paketi təqdim edildi.

Mövcud vəziyyətin Qrupun fəaliyyətində durğunluğa səbəb olduğu müşahidə olunmaqla bərabər nə qədər müddət davam edəcəyi və sonrakı təsirləri haqqında dəqiq proqnozların verilməsi qeyri-mümkündür. Bu səbəbdən hal-hazırda rəhbərlik sözügedən pandemiyanın maddi təsirlərini qiymətləndirmək iqtidarında deyil.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azəbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdən düşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

Makro-iqtisadi amillərin gözlənilən dəyişiklikləri səbəbindən rəhbərlik bu dəyişikliklərin Qrupun əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil.